YENİ MÜSAVAT

www.musavat.com

Qurucusu: Rauf Arifoğlu Həftəlik qəzet 3-9 iyun 2026-cı il Çərşənbə № 21 (8870) Qiyməti 1 manat

Xəbər

Ölkəmiz üçün qorxunc El Nino dalğası

yazısı səh.3-də

Ölkə

Milli Kibertəhlükəsizlik Agentliyi yaradıldı - vəzifələri

Yeni qurum ölkədə kibertəhlükəsizlik sahəsində tənzimləməni və nəzarəti təmin etməlidir

yazısı səh.12-də

Qafqaz siyasətində fiasko - suçlu tək Lavrovmu?

yazısı səh.8-də

Azərbaycanlılara Rusiyada səfərbərlik təhlükəsi

yazısı səh.4-də

Azərbaycana "hədəfdəsiniz" xəbərdarlığı

yazısı səh.5-də

ABŞ-nin yeni səfirinin adı açıqlandı

yazısı səh.6-da

Kaleb Orrun səfərində verilən mesajlar

yazısı səh.5-də

Bakı-Tiflis hərbi ittifaqı güclənir

yazısı səh.9-da

Ən çox milyarderi olan ölkələr açıqlandı

yazısı səh.10-da

Orban niyə BMT-nin baş katibi ola bilməz

yazısı səh.11-də

"Babək" yatağının BP-yə verilməsi kimləri narahat etdi?

yazısı səh.10-da

Bakıdan Qarsa qatarla?

yazısı səh.2-də

Supermarket və apteklərdə yeni ödəmə qaydası

yazısı səh.14-də

ERMƏNİSTANDA FRANSA HƏRBİ BAZASI

İrəvan yayılan məlumatları indilikdə təkzib etməyə üstünlük verir, amma Moskvadan üz döndərən ölkəni Parisdən başqa kim müdafiə edə bilər?

yazısı səh.9-da

Ölkədə internet qumarı kimlər oynayır?

Hüquqşünasa görə, qeyri-qanuni kazino şəbəkələrinin ən təhlükəli tərəfi onların xaricdə qurulması və gəncləri "tələyə salmasıdır"

yazısı səh.12-də



Bakının baş memarından "kupça"sız evlərlə bağlı açıqlama

yazısı səh.3-də



Vardanyanın müracìətinìn xaìn şìfrələrì

yazısı səh.6-da

Qaçqın statuslu dövlət katìbì - Rubìo kìmdìr...

yazısı səh.7-də

Bakıdan Qarsa qatarla?

İyunun 2-də Bakı-Tiflis-Qars dəmir yolu xəttinin rəsmi açılışı olub.

Açılış mərasimində Gürcüstanın baş naziri İrakli Kobaxidze, iqtisadiyyat və davamlı inkişaf naziri Mariam Kvrivişvili, Azərbaycan rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Türkiyə nəqliyyat və infrastruktur naziri Abdulkadir Uraloğlu iştirak edib.

Tədbirə həmçinin Gürcüstan hökumətinin üzvləri, deputatlar, diplomatik korpusun və tərəfdaş ölkələrin nümayəndələri, Ermənistanın ərazi idarəetmə və infrastruktur naziri Davit Xudatyan, eləcə də Özbəkistan və Qazaxıstandan qonaqlar qatılıblar.

Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyinin məlumatına görə, yeni dəmir yolu xətti Gürcüstan, Azərbaycan və Türkiyənin birgə strateji layihəsidir və Avropa ilə Asiya arasında əlaqənin gücləndirilməsində mühüm rol oynayır:

"Yeni dəmir yolu marşrutu regionda əlavə tutum yaradır, yük axını marşrutlarının şaxələndirilməsinə əhəmiyyətli dərəcədə töhfə verir və regionun əlaqəsini gücləndirir. Yeni Bakı-Tiflis-Qars dəmir yolu xəttində yükdaşımalarının həcmi hər il artır. Xəttin tam istismara verilməsi ilə layihənin tutumu 5 milyon tona qədər artacaq, bu da regiona əlavə yük axınlarını idarə etməyə və nəqliyyat imkanlarını əhəmiyyətli dərəcədə gücləndirməyə imkan verəcək".

Bakı-Tiflis-Qars dəmir yolu layihələndirilərkən sərnişin daşınmalarının həyata keçirilməsi planlaşdırılırdı və yol buna uyğun inşa olunmuşdu. APA xəbər verir ki, bunu Azərbaycan Dəmir Yolları QSC-nin sədri Rövşən Rüstəmov jurnalistlərə açıqlamasında deyib.

O qeyd edib ki, hazırda Azərbaycan, Gürcüstan və Türkiyə arasında BTQ xətti ilə sərnişin daşınması ilə bağlı hər hansı bir plan yoxdur.

Təhlükəli virus Azərbaycanla sərhəddə

Gürcüstanda bu il ilk təsdiqlənmiş denqe virusu halı qeydə alınıb. Bu barədə İaşvili Uşaq Mərkəzi Xəstəxanasının tibb direktoru İvane Çxaidze danışıb. O bildirib ki, diaqnoz ötən həftə bir xəstədə təsdiqlənib. Xəstənin vəziyyəti və mümkün infeksiya mənbəyi də daxil olmaqla, əlavə məlumatlar açıqlanmır.

Denqe virusu yoluxmuş ağcaqanadların dişləmələri vasitəsilə insanlara ötürülən virus infeksiyasıdır. İnkubasiya dövrü adətən 5-7 gündür, lakin bəzi hallarda iki həftəyə qədər davam edə bilər. Əsas simptomlara yüksək hərarət, şiddətli üşütmə, baş ağrısı, əzələ və oynaqlarda şiddətli ağrı daxildir.

Digər təhlükəli infeksiyalarla bağlı vəziyyəti şərh edən İvane Çxaidze ölkədə Ebola virusuna yoluxma hallarının qeydə alınmadığını vurğulayıb. O bildirib ki, hazırda Ebolanın Gürcüstana yayılması təhlükəsi yoxdur.

Klub turnirlərində mümkün rəqiblər

2026-2027 mövsümündə UEFA Çempionlar Liqasına 81, Avropa Liqasına 45, Konfrans Liqasına 111 komanda buraxılır. İngiltərə mövsümdə 9, İspaniya 8, İtaliya, Almaniya və Fransa 7, Niderland 6, Portuqaliya, Belçika, Çexiya, Türkiyə, Norveç, Yunanıstan, Avstriya, Şotlandiya və Polşa 5, Şimali Makedoniya, Belarus, Andorra, Cəbəllütariq və San Marino 3, Lixtenşteyn 1 komanda ilə təmsil olunacaq.

33 UEFA üzvünün, o cümlədən Azərbaycanın kvotası 4 komandadır. Azərbaycan Çempionlar Liqasına "Sabah", Avropa Liqasına "Qarabağ", Konfrans Liqasına "Turan Tovuz" və "Neftçi" ilə qatılır.(mənbə: novator.az)

Çempionlar Liqasına birinci mərhələdən başlayacaq "Sabah"ın potensial rəqibləri bunlardır: İrlandiyadan "Şemrok Rovers", Finlandiyadan KuPS, Kosovodan "Drita", Cəbəllütariqdən "Linkoln", Bosniyadan "Borats", İslandiyadan "Vikinqur", Qazaxıstandan "Kayrat", Ruminiyadan "Universitatya" (Krayova), Latviyadan "Riqa", Farer adalarından "Klaksvik", Estoniyadan "Flora", Şimali İrlandiyadan "Larn", Moldovadan "Petrokub", Uelsdən "Nyu Sents".

Avropa Liqasının birinci mərhələsində yer alan "Qarabağ"ın bu mümkün rəqibləri var: "Jilina" (Slovakiya), "Voyvodina" (Serbiya), "Universitatya" (Kluj, Rumıniya), "Alüminiy" (Sloveniya), "Derri Siti" (İrlandiya), "Vestri" (İslandiya).

Konfrans Liqasında birinci mərhələdən start götürən "Neftçi"nin bu komandalarla üz-üzə gəlməsi mümkündür: "Velej" (Bosniya), "Virtus" (San Marino), "Liepaya" (Latviya), "İlves" (Finlandiya), "Santa Koloma" (Andorra), "Konnahs Kuey", "Penybont", "Karnarfon Taun" (Uels), "Bohemians" (İrlandiya), "Styarnan" (İslandiya), "Europa" (Cəbəllütariq), "İnter" (Finlandiya), "Malişeva" (Kosovo), "Yelimay" (Qazaxıstan), "Dinamo", "Elbasani" (Albaniya), UNA, "Mondorf-le-Ben" (Lüksemburq), "Heqelmann" (Litva), "Runavik" (Farer adaları), "Sileks" (Şimali Makedoniya), "Mornar Bar", "Petrovats" (Monteneqro), "Qlentoran" (Şimali İrlandiya), "Marsaxlokk" (Malta), "Kalyu" (Estoniya).

Konfrans Liqasına ikinci mərhələdən başlayacaq "Turan Tovuz" bu komandalara tuş gələ bilər: "Braqa" (Portuqaliya), "Ayaks" (Niderland), "Kopenhagen" (Danimarka), "Gent" (Belçika), "Rapid", "Austria" (Avstriya), "Panatinaikos" (Yunanıstan), "Ludoqorets" (Bolqarıstan), "Styaua", "Kluj" (Rumıniya), "Rakov", "Katovitse" (Polşa), "Partizan" (Serbiya), "Luqano", "Syon" (İsveçrə), AEK, "Apollon" (Kipr), "Başakşəhər" (Türkiyə), "Riyeka" (Xorvatiya), (Rumıniya), HİK (Finlandiya), "Zrinski" (Bosniya), "Brann" (Norveç), "Spartak" (Slovakiya), "Qradets" (Çexiya), "Vaduts" (Lixtenşteyn), "Nordsyaelland" (Danimarka), "Tobol" (Qazaxıstan), "Hibernian" (Şotlandiya), "HB Torshavn" (Farer adaları).

Hər üç turnirdə dörd təsnifat mərhələsi var. Çempionlar Liqasının birinci mərhələsində ələnənlər Konfrans Liqasına, qalan mərhələlərində ələnənlər Avropa Liqasına köçəcək, Avropa Liqası təsnifatlarında ələnənlər Konfrans Liqasına adlayacaq.

Reqlamentə görə, 36 komandalıq liqa mərhələlərində ilk 8 pilləni tutanlar 1/8 finala, 9-24-cü yerləri tutanlar 1/16 finala çıxacaq.

"ASAN xidmət"də xidmətlərin sayı artırıldı

"ASAN xidmət" mərkəzlərində dövlət orqanları tərəfindən həyata keçirilən xidmətlərin siyahısı genişlənib. Prezident İlham Əliyevin Fərmanı ilə "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" fərmana edilən dəyişiklikdə əksini tapıb. Fərmana əsasən, "ASAN xidmət" mərkəzlərində dövlət orqanları tərəfindən şəxsin dövlət narkoloji tibb müəssisələrində qeydiyyatda olmasına dair arayışın verilməsi də həyata keçiriləcək.

Məhərrəmlik ayına sayılı günlər qaldı

Azərbaycanda Məhərrəm ayı iyunun 16-da başlayacaq. Məhərrəmlik ayının ən mühüm günü hesab edilən Aşura günü isə iyunun 25-nə təsadüf edəcək.

Məhərrəmlik ayından sonra isə Səfər ayı iyulun 15-də başlayacaq və 1 aya yaxın davam edəcək.

Statistika Komitəsində üç şöbə müdiri işsiz qaldı



Dövlət Statistika Komitəsində (DSK) struktur islahatları aparılıb, üç şöbə müdiri vəzifəsini itirib. Bununla bağlı qurumun sədri Azər Mursaqulov müvafiq əmrlər imzalayıb.

Dəyişiklik nəticəsində DSK-nin Sənədlərlə və vətəndaş müraciətləri ilə iş şöbəsi ləğv edilib. Adıçəkilən şöbənin müdiri Sevda Süleymanova işini itirib.

Digər dəyişikliklə komitənin Hüquq və insan resurslarının idarə edilməsi şöbəsi ləğv olunub. Şöbənin müdiri Vüsalə Alıyeva vəzifəsiz qalıb və işdən çıxarılıb.

Bundan başqa, İnformasiya və ictmaiyyətlə əlaqələr şöbəsi ləğv edilərək, yerində İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsi yaradılıb. Mehman Mehdiyev yeni yaradılan şöbənin müdiri təyin olunub. Ləğv olunan şöbənin müdiri Rafael Süleymanov da işsiz qalıb.

DSK-da yeni İnsan resursları və sənədlərlə iş şöbəsi yaradılıb. Komitə sədrinin əmri ilə Əliyev Bayram Feyzulla oğlu həmin şöbənin müdiri vəzifəsinə gətirilib.

Ümumilikdə, struktur dəyişiklikləri nəticəsində DSK-nin şöbələrin sayı 21-dən 20-yə endirilib.

Qeyd edək ki, Prezident İlham Əliyevin fevralın 10-da imzaladığı sərəncamla Azər Mursaqulov Dövlət Statistika Komitəsinin sədri təyin edilib. O, bu vəzifədə Tahir Budaqovu əvəzləyib.



Cinayət məsuliyyətinə cəlb edilən polkovnik kimdir?

Bir neçə gün əvvəl Müdafiə Nazirliyinin Baş Tibb İdarəsinin rəis müavini vəzifəsindən azad edilən polkovnik Oktay Babayev cinayət məsuliyyətinə cəlb olunub. "Qafqazinfo" xəbər verir ki, o, dələduzluqda ittiham edilir.

Maraqlı məqam isə ondan ibarətdir ki, iş üzrə zərərçəkmiş şəxs Silahlı Qüvvələrin Baş Klinik Hospitalının Mərkəzi Tibbi Arxivinin və Müdafiə Nazirliyinin Tibbi Sənədlər Arxivinin sabiq rəisi, hazırda korrupsiya ittihamı ilə həbsdə olan mayor Ruhin Tağıyevdir.

İttihama görə, O.Babayev R.Tağıyevdən onun sərəncama göndərilməməsinə köməklik göstərəcəyi vədi ilə 30 min manat alıb. Lakin bir müddət sonra R.Tağıyev həbs olunub.

Şikayət əsasında Respublika Hərbi Prokurorluğunda istintaq aparılıb. İstintaqın yekununda O.Babayevə Cinayət Məcəlləsinin 178.2.3-cü (dələduzluq-qulluq mövqeyindən istifadə edilməklə törədildikdə) maddəsi ilə ittiham irəli sürülüb. Bu maddənin sanksiyasında cərimə və ya 5 ilə qədər həbs nəzərdə tutulur.

Əvvəllər Naxçıvan Hərbi Polis İdarəsinin rəisi də işləmiş polkovnik Babayev 30 min manatın bir hissəsini ödəməyə razılıq verdiyi üçün həbs edilməyib, barəsində alternativ qətimkan tədbiri seçilib.Hazırda cinayət işi baxılması üçün Bakı Hərbi Məhkəməsinə göndərilib.

Qeyd edək ki, Ruhin Tağıyevin cinayət işi də Bakı Hərbi Məhkəməsində araşdırılır. Həmin iş üzrə hələlik hökm çıxarılmayıb.

YENİ MÜSAVAT
N 21 (8870) 3 iyun 2026



Bakının baş memarından "küpçə"sız evlərlə bağlı açıqlama

Read Qasımov: "Qanunsuz tikililərin hamısının sənədləşdirilməsinə vahid yanaşma mümkün deyil"

"Paytaxtın bundan əvvəlki Baş Planı 1980-ci illərin ortalarında sovet planlaşdırma sistemi çərçivəsində hazırlanmışdı. Sonrakı dövrdə şəhərin demoqrafik göstəriciləri, iqtisadi strukturu, nəqliyyat axınları və ərazi inkişaf meylləri əhəmiyyətli dərəcədə dəyişib. Müstəqillik illərində Bakıda urbanizasiya proseslərinin sürətlənməsi, əhali artımı və yeni iqtisadi münasibətlərin formalaşması şəhərin mövcud reallıqlarına uyğun strateji planlaşdırma sənədinin hazırlanmasını zəruri edib. Yeni Baş Plan məhz bu çağırışlara cavab verən, beynəlxalq şəhərsalma təcrübəsinə əsaslanan və uzunmüddətli inkişaf prioritetlərini müəyyən edən sənəddir. Sənədin əsas hədəflərindən biri Bakının mərkəzdənqaçma inkişaf meyllərini idarə etməklə polisentrik şəhər modelinin formalaşdırılmasıdır. Bu yanaşma şəhərin tarixi mərkəzi üzərində yükün azaldılmasını, periferik ərazilərdə yeni iqtisadi, sosial və ictimai fəaliyyət mərkəzlərinin yaradılmasını nəzərdə tutur. Eyni zamanda yaşıl infrastrukturun genişləndirilməsi, ictimai məkanların keyfiyyətinin artırılması, piyada və velosiped hərəkətinin təşviqi, eləcə də dayanıqlı mobillik prinsiplərinin tətbiqi istiqamətində tədbirlər həyata keçirilir. Baş Planın icrası mərhələli şəkildə aparılır və nəzərdə tutulan tədbirlərin əhəmiyyətli hissəsi artıq icra mərhələsindədir. Bu proses 2040-cı ilədək ardıcıl şəkildə davam etdiriləcək". Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsinin rəisi Read Qasımov İqtisadiyyat.az saytına müsahibəsində belə deyib.

O, Bakının əsas problemlərindən biri olan qanunsuz tikililərlə bağlı da danışıb. "Son illərdə bu istiqamətdə mühüm institusional və hüquqi tədbirlər həyata keçirilib. Məqsəd normativ tələblərə cavab verən və sənədləşdirilməsi mümkün olan yaşayış obyektlərinin hüquqi statusunun müəyyənləşdirilməsi, eyni zamanda yeni qanunsuz tikinti hallarının qarşısının alınmasıdır. Hazırda aidiyyəti dövlət qurumları ilə birlikdə şəhərsalma nəzarəti mexanizmləri gücləndirilir və şəhərsalma inkişafının təsdiq edilmiş planlaşdırma sənədlərinə uyğun həyata keçirilməsi təmin olunur. Mövcud qanunsuz tikililərin hamısının sənədləşdirilməsi ilə bağlı vahid standart yanaşma tətbiq etmək mümkün deyil. Hər bir obyekt yerləşdiyi ərazinin funksional təyinatı, mühəndis-kommunikasiya təminatı, təhlükəsizlik göstəriciləri və şəhərsalma normalarına uyğunluğu baxımından ayrıca qiymətləndirilməlidir. Qəbul olunacaq qərarlar şəhərsalma qanunvericiliyinin tələbləri, ərazi planlaşdırma sənədləri və ictimai maraqlar əsasında müəyyənləşdiriləcək".

Baş memar paytaxtda tıxac problemi ilə bağlı da danışıb: "Bakı şəhərinin yeni Baş Planı 2023-cü ildə təsdiq olunub. Bundan əvvəl şəhərin müasir inkişaf çağırışlarına cavab verən aktual strateji planlaşdırma sənədi mövcud deyildi. Müstəqilliyin ilk illərində paytaxt ərazisində tikinti prosesləri müəyyən dərəcədə plansız xarakter daşıyıb. Lakin sonrakı dövrdə şəhərsalma sahəsində ardıcıl islahatlar həyata keçirilib, normativ-hüquqi baza təkmilləşdirilib və nəticə etibarilə Bakı şəhərinin Baş Planı qəbul olunub. Hazırda şəhərin bütün ərazilərinin inkişafı məhz bu sənəd əsasında həyata keçirilir və ərazi inkişafına kompleks yanaşma tətbiq olunur. Nəqliyyat mobilliyinin artırılması və yol şəbəkəsinin optimallaşdırılması Baş Planın əsas prioritetlərindəndir. Sənəddə yeni nəqliyyat dəhlizlərinin yaradılması, mobilliyin və mikromobilliyin gücləndirilməsi, ictimai nəqliyyat sisteminin inteqrasiyası və multimodal daşınma imkanlarının genişləndirilməsi nəzərdə tutulur. Bununla yanaşı, polisentrik inkişaf modeli sayəsində gündəlik hərəkət axınlarının şəhərin müxtəlif hissələri üzrə daha balanslı bölüşdürülməsi hədəflənir. Bu tədbirlər uzunmüddətli perspektivdə nəqliyyat yüklənməsinin qarşısını alacaq və tıxacların azalmasına şərait yaradacaq".

"2040-cı ilədək Bakı necə bir şəhər olacaq" sualına baş memar belə cavab verib: "Baş Planın əsas fəlsəfəsi şəhərin iqtisadi, sosial və ekoloji komponentləri arasında tarazlığı təmin edən dayanıqlı inkişaf modelinin qurulmasından ibarətdir. Məqsədimiz yüksək həyat keyfiyyətinə malik, ekoloji baxımdan dayanıqlı, təhlükəsiz və inklüziv şəhər mühiti formalaşdırmaqdır. Bakı 2040-cı ildə tarixi-mədəni irsini qoruyan, müasir şəhərsalma prinsiplərini tətbiq edən, inkişafın müxtəlif mərkəzlər üzrə balanslaşdırıldığı polisentrik metropolisə çevrilməlidir".

❑ **"Yeni Müsavat"**

Ölkəmiz üçün qorxunc El Nino dalğası

Alimlər ekstremal hava xəbərdarlığı verir

Son günlər Azərbaycanda havanın tez-tez dəyişməsi, yağıntıların qeyri-sabitliyi və temperatur dalğalanmaları baş verir. Havanın qeyri-sabitliyi ölkəmizlə məhdudlaşmır, planetar səviyyədə durum getdikcə kəskinləşir. Bu əsnada Birləşmiş Millətlər Təşkilatı (BMT) və Ümumdünya Meteorologiya Təşkilatının (ÜMT) yaydığı yeni xəbərdarlıqdan belə aydın olur ki, qlobal iqlim gündəmi bu dəfə sadəcə hava proqnozu deyil, bir az daha ciddi mövzudur. Alimlərin son proqnozlarına görə, Sakit okeanda formalaşmaqda olan El Nino hadisəsi yaxın həftələrdə güclənərək onilliklərin ən güclüsü ola bilər. Bəzi modellər hətta onun super El Nino səviyyəsinə çatacağını istisna etmir.

El Nino Sakit okeanda səth sularının normadan artıq isinməsi nəticəsində yaranan təbii iqlim hadisəsidir. Lakin onun təsiri yalnız okeanla məhdudlaşmır, bütün planetə yayılır. Buna qədər tipik El Nino Cənubi Amerikada güclü yağış və daşqınlar, Avstraliya və Cənub-Şərqi Asiyada quraqlıq və meşə yanğınları, Hindistanda zəif mussonlar, ABŞ-nin cənubunda yağıntı artımı ilə seçilib. Bu dəfə isə vəziyyət fərqlidir. Hadisə artıq rekord istiləşmə fonunda formalaşır. Yəni təbii iqlim dövranı antropogen qlobal istiləşmə ilə üst-üstə düşür. BMT baş katibi Antonio Quterreş bu vəziyyəti belə şərh edib: "El Nino istiləşən dünyanın alovuna əlavə yanacaq tökəcək". İqlim məlumatları göstərir ki, El Nino dövrləri adətən qlobal temperatur sıçrayışları ilə üst-üstə düşür. Xüsusilə 1998 və 2015-ci illərdə güclü El Nino hadisələri dünya üzrə rekord istilik illəri ilə müşayiət olunmuşdu. Yeni proqnozlara görə, 2027-ci il tarixdə ən isti illərdən biri ola bilər. Alimlər bunu təkcə El Nino ilə deyil, artıq yığılan uzunmüddətli istilik trendi ilə izah edirlər. Berkeley Earth institutundan iqlimşünas Zeke Hausfather qeyd edir edir ki, bu dəfə El Nino sadəcə mövcud istiliyi artırır. Əsas tendensiya isə artıq insan fəaliyyəti ilə yüksələn qlobal temperaturdur. Tarixi təcrübə göstərir ki, güclü El Nino hadisələri yalnız hava sistemini deyil, iqtisadi tarazlığı da dəyişdirir. Kənd təsərrüfatında məhsul itkisi, qlobal ərzaq qiymətlərində sıçrayış və təchizat zəncirlərində pozulmalar ən çox rast gəlinən nəticələrdir. Analitiklərin qiymətləndirməsinə görə, əvvəlki güclü El Nino dövrləri dünya iqtisadiyyatına yüz milyardlarla dollar zərər vurub. Bu dəfə isə risklər daha yüksək qiymətləndirilir. Çünki qlobal sistem artıq pandemiya sonrası və müharibələr fonunda həssas vəziyyətdədir. Bütün modellərin ortaq cəhəti qeyri-müəyyənlikdir. El Nino hadisələri külək dəyişikliklərinə həssasdır və dəqiq vaxtlama proqnozlaşdırmaq çətindir.

Son günlər Azərbaycanda müşahidə olunan anomal hava şəraiti, qəfil temperatur dəyişmələri və qeyri-sabit yağıntılar qlobal iqlim proseslərinin ölkəmizə təsirsiz ötüşmədiyini aydın göstərir. Sakit okeanda formalaşan və 2026-cı ilin sonuna doğru pik həddə çatması gözlənilən rekord güclü El Nino hadisəsinin, birbaşa okeandan uzaq olsaq da, atmosfer sirkulyasiyası vasitəsilə Azərbaycana da ciddi təsiri var. El Nino qlobal temperaturu yüksəltdiyi üçün Azərbaycanda da fəsillərarası və hətta gün ərzində-ki temperatur kontrastları kəskinləşəcək. İsti xəzri və ya cənub küləklərinin müddəti və intensivliyi artacaq. Quraq zonalar olan Kür-Araz ovalığında temperatur normadan xeyli yüksək müşahidə oluna bilər. El Nino illərində Azərbaycanda qış adətən nisbətən yumşaq keçir, lakin atmosferdəki qeyri-sabitlik kəskin soyuq hava kütlələrinin ölkəyə qəfil daxil olması ilə qısamüddətli, lakin anomal şaxtalı günlərə də yol açа bilər. Sakit okeandakı istilik anomaliyası qlobal külək sistemlərini, Xəzər və Qafqaz regionuna təsir edən hava cərəyanlarını dəyişir. Bu isə yağıntıların paylanmasını qeyri-bərabər edir. Yağıntıların ümumi gün sayı azalsa da, düşən yağıntının intensivliyi artır. Yəni bir neçə ayın norması bir neçə saatda yağır. Bu, dağlıq və dağətəyi rayonlarda, Böyük və Kiçik Qafqaz bölgəsində, xüsusən Quba-Xaçmaz, Şəki-Zaqatala və Lənkəran-Astara zonalarında daşqın, sel və torpaq sürüşməsi riskini kəskin artırır. Atmosferin alt və üst qatları arasındakı kəskin temperatur fərqi yaz və yay aylarında kənd təsərrüfatına ciddi ziyan vuran dolu hadisələrinin tezliyini artırır. Azərbaycan regional olaraq su qıtlığından əziyyət çəkən ölkələr sırasındadır və El Ninonun gətirdiyi qeyri-sabitlik bu problemi daha da dərinləşdirir. Yaz aylarında havaların qəfil isinib sonra yenidən kəskin soyuması meyvə ağaclarının vaxtından tez çiçəkləməsinə və şaxta vurmasına, quraqlıq isə taxılçılıq və pambıqçılıq kimi strateji sahələrdə məhsul itkisinə səbəb olur. El Nino dövründə Xəzər dənizini qidalandıran əsas çayların, xüsusilə Volqa çayının hövzəsində yağıntı rejiminin dəyişməsi və yüksək temperatur səbəbindən buxarlanmanın artması, artıq kritik həddə olan Xəzər dənizinin səviyyəsinin enməsi prosesini daha da sürətləndirə bilər. Bu isə sahilyanı infrastruktur və ekosistem üçün əlavə təhdiddir. Azərbaycan üçün El Nino sadəcə isti hava demək deyil. Bu, hava proqnozlarının gözlənilməz olması, kənd təsərrüfatı təqviminin pozulması və ekstremal təbiət hadisələrinin - sel, dolu, quraqlığın tez-tez təkrarlanması deməkdir.

❑ **E.MƏMMƏDƏLİYEV,**
Musavat.com

YENİ MÜSAVAT

N 21 (8870) 3 iyun 2026

Azərbaycanlılara Rusiyada səfərbərlik təhlükəsi



Son günlər Rusiyada orduya yeni səfərbərlik elan ediləcəyi barədə xəbərlər çoxalıb. Kreml səfərbərliyə gedəcəkmi? Azpolitika.info bu barədə geniş yazı ilə çıxış edib. "Bu gün Rusiya əhalisini ən çox düşündürən suallardan biri məhz budur. Bu sual əlbəttə ki, Rusiya vətəndaşlığı olan azərbaycanlıları da narahat edir. Rusiya bu müharibə dövründə açıq şəkildə göstərib ki, ilk olaraq qeyri-rusları "ovlamağa" və ən qaynar nöqtələrə "top əti" kimi göndərməyə üstünlük verir.

Cəbhədəki uğursuzluq, müharibənin dalana dirənməsi və çoxsaylı itkilərə baxmayaraq irəliləyişin olmaması ilk baxışda səfərbərliyin qaçılmaz olduğuna dair təsəvvür yaradır. Lakin riskli və nəticəsi şübhəli görünən səfərbərlik qərarının veriləcəyini sual altına alan xeyli ciddi məqamlar var", - deyə sayt yazır.

Daha sonra səbəblər sıralanır: "Birincisi, iqtisadi səbəblərə görə səfərbərliyin elan ediləcəyi inandırıcı görünmür. Müharibə açıq şəkildə Rusiya iqtisadiyyatını və dövlət büdcəsini tükəndirir. Büdcə kəsirini qapatmaq üçün elmdən tibbə qədər hər cür xərc maddələri azaldılır, əvəzində hər cür vergi və cərimələr artırılır. Aydındır ki, daha bir neçə il davam edən müharibə və yeni bir səfərbərlik onsuz da ağır olan iqtisadi vəziyyəti dərin böhran həddinə qədər pisləşdirə bilər.

İkincisi siyasi səbəblərdir. Aydındır ki, səfərbərlik qərarı daha da böyük sosial gərginliyə səbəb olacaq və gözlənilməz nəticələr yaradacaq. Rusiyalılar zatən həm sosial-iqtisadi vəziyyətin pisləşməsindən, həm də internet bloklamaları başda olmaqla, müharibənin yaratdığı digər çətinliklərdən narazıdırlar. Cəmiyyət müharibədən bezib. Vladimir Putinin reytinqi isə hətta Kremlə yaxın mərkəzlərin keçirdiyi rəsmi sorğulara görə belə durmadan, kəskin şəkildə aşağı düşür.

Üçüncüsü, sırf hərbi səbəblər var. 2022-ci ilin payızındakı qismən səfərbərlikdən bəri müharibə öz təbiətini kökündən dəyişib və "dron müharibəsi"nə çevrilib. Artıq canlı qüvvə və hərbi texnika ilə kütləvi hücumlar mümkün deyil. Yalnız kiçik qruplarla əraziyə nüfuz etmək taktikası aparılır ki, bu da böyük həcmli və effektiv irəliləyiş təmin edə bilmir. Bunun əvəzinə onlarla kilometr uzanan və hər iki tərəfdən dronlarla durmadan izlənilən "ölüm zonası" var. İndi hər iki tərəfdə o qədər çoxlu sayda dron var ki, bir əsgərə onlarla FPV dron düşür.

Odur ki, səfərbərlik olunsa belə, cəbhədə artıq canlı qüvvə sayı həlledici rol oynamır. Ukraynanın bir neçə PUA operatoru eyni zamanda onlarla, bəlkə də yüzlərlə rus əsgərinin qarşısını ala biləcək imkanlara malikdir. Beləliklə, dronlara qarşı əlac tapılmayınca, yüzminlərlə, hətta milyonlarla insanı orduya səfərbər etməyin mənası olmayacaq, vəziyyət dəyişməyəcək".

Bakının təsisçisi olduğu "Sülh Şurası" niyə pulsuz qalıb?

17 milyard dollarlıq vədlər havada qaldı; deputat hesab edir ki, "Sülh Şurası"nın taleyi ayrılacaq vəsaitlərdən asılı deyil

ABŞ Prezidenti Donald Tramp tərəfindən yaradılmış "Sülh Şurası" (SŞ) üçün vəd edilən 17 milyard dolların faktiki olaraq mövcud olmadığı məlum olub. Bu barədə "Financial Times" qəzeti öz mənbələrinə istinadən məlumat yayıb. Mənbələrdən birinin sözlərinə görə, "fonda 1 sent belə yatırılmayıb".

Əslində bu məbləğ Qəzza sektorunun bərpası üçün nəzərdə tutulmuş fonda aid idi və həmin fond Dünya Bankı tərəfindən idarə olunmalı idi. Lakin məlum olub ki, bu istiqamətdə heç bir real maliyyə köçürməsi baş verməyib.

ABŞ 10 milyard dollar ayıracağını bəyan edib. Digər üzv ölkələr, o cümlədən Səudiyyə Ərəbistanı, Qətər, Qazaxıstan, Azərbaycan, BƏƏ və Mərakeş ümumilikdə 7 milyard dollara qədər vəsait vəd ediblər. Bundan əlavə, Rusiya Prezidenti Vladimir Putin də dondurulmuş Rusiya aktivlərindən 1 milyard dolların bu təşəbbüsə yönəldilə biləcəyini istisna etməyib. Lakin bu planların heç biri hələlik reallaşmayıb.

Eyni zamanda BMT çərçivəsində yaradılması nəzərdə tutulan və Qəzzada sabitliyi təmin etməli olan beynəlxalq təhlükəsizlik kontingenti də (ISF) hələ formalaşdırılmayıb. Bunun səbəbi təkcə maliyyə və təşkilati çətinliklər deyil, həm də bölgədə mürəkkəb hərbi-siyasi vəziyyətin davam etməsidir. İsrail ordusunun Qəzza ərazisində mövcudluğu və HƏMAS hərəkatının silahsızlanmaq istəməməsi bu prosesi daha da çətinləşdirir.

"Sülh Şurası"nın fəaliyyəti ilə bağlı digər diqqətçəkən məqam onun informasiya aktivliyinin son dərəcə zəif olmasıdır. Rəsmi sayt yanvar ayından bəri demək olar ki, yenilənməyib və son məlumat 22 yanvar tarixində təşkilatın nizamnaməsinin imzalanması ilə bağlı dərc olunub. Saytda təqdim olunan bəzi məlumatlar da artıq köhnəlib. Ekspertlər layihənin perspektivlərinə olduqca skeptik yanaşırlar. Onların fikrincə, təşkilatın hüquqi statusu, səlahiyyətləri və real fəaliyyət mexanizmləri qeyri-müəyyəndir. Bu isə onu göstərir ki, "Sülh Şurası" daha çox siyasi təşəbbüs xarakteri daşıyır, nəinki real beynəlxalq institut.

Digər tərəfdən, regionda davam edən gərginlik, xüsusilə İran ətrafında vəziyyətin kəskinləşməsi belə təşəbbüslərin həyata keçirilməsini daha da çətinləşdirir. ABŞ-nin özünün beynəlxalq hüquqla bağlı mübahisəli addımları isə onun "sülh qurucusu" kimi imicinə zərbə vurur.

O halda "Sülh Şurası" niyə böyük hay-küylə yaradıldı və indi nə üçün fəaliyyətsizdir?

Milli Məclisin deputatı Elçin Mirzəbəyli "Yeni Müsavat"da məsələyə bu cür aydınlıq gətirdi: "Zənnimcə, bu mövzu ilə bağlı qiymətləndirmə apararkən ilk növbədə "Sülh Şurası"nın yaranma səbəblərini, geosiyasi məqsədlərini və hazırkı passivliyinin arxasında duran amilləri sistemli şəkildə təhlil etmək lazımdır. Çünki beynəlxalq münasibətlər tarixində bu qəbildən olan bir çox təşəbbüslər ilk mərhələdə real institut kimi deyil, siyasi platforma və ya gələcək mexanizm kimi meydana çıxıb. 2023-cü ilin oktyabrından sonra Yaxın Şərqdə yaranmış vəziyyət göstərdi ki, mövcud beynəlxalq institutlar regionda sabitliyin təmin olunması üçün kifayət qədər effektiv mexanizm formalaşdıra bilməyiblər. BMT Təhlükəsizlik Şurası böyük dövlətlərin qarşılıqlı vetoları səbəbindən iflic vəziyyətinə düşüb, regional təşkilatlar isə proseslərə təsir imkanlarını əhəmiyyətli dərəcədə itiriblər. Məhz bu şəraitdə ABŞ administrasiyasının yeni platforma yaratmaq ideyasını irəli sürməsində məqsəd, yalnız Qəzzanın bərpası deyildi. Əsas hədəf müharibədən sonrakı dövr üçün siyasi, iqtisadi və təhlükəsizlik arxitekturasının formalaşdırılması idi.

Başqa sözlə, "Sülh Şurası" ilk növbədə maliyyə fondu deyil, geosiyasi layihə kimi nəzərdə tutulmuşdu. Bu baxımdan onun yaradılması beynəlxalq sistemdə yaranmış boşluğa cavab kimi qiymətləndirilə bilər.

"Sülh Şurası"nın hazırkı passivliyinin bir neçə obyektiv səbəbi var. Birinci səbəb Qəzzada müharibənin faktiki olaraq başa çatmamasıdır. Digər səbəb isə təhlükəsizlik faktorudur.

Bəlli olduğu kimi, BMT çərçivəsində nəzərdə tutulan beynəlxalq təhlükəsizlik qüvvələrinin formalaşdırılması baş tutmayıb. Halbuki istənilən yenidənqurma proqramının əsas şərti təhlükəsiz mühitinin yaradılmasıdır. İnvestorlar və donorların hərbi əməliyyatların yenidən başlaması riski olan əraziyə vəsait yönəltmələri isə mümkün deyil.

Bütün bunlara "Sülh Şurası"nın uğursuzluğu demək olarmı? Hesab edirəm ki, bu barədə qəti fikir söyləmək hələ çox tezdir".

Deputat vurğuladı ki, məhz bu səbəblərdən dolayı bu gün "Sülh Şurası"nı nə tam uğursuz layihə, nə də gələcəyin qlobal institutlarından biri kimi təqdim etmək mümkündür: "Hazırda o, daha çox siyasi niyyət və geosiyasi konsepsiya mərhələsində olan təşəbbüs təsiri bağışlayır. Onun taleyini isə milyardlarla dollar vəsait deyil, Yaxın Şərqdə sülhün və postmünaqişə idarəetmə modelinin hansı istiqamətdə formalaşacağı müəyyən edəcək. Bu baxımdan, "Sülh Şurası"nın taleyi onun maliyyə vəsaitindən daha çox regiondakı siyasi vəziyyətdən asılıdır. Əgər İsrail-HƏMAS qarşıdurmasının dayanıqlı siyasi həlli tapılarsa, Qəzzanın idarə edilməsi üzrə yeni mexanizm formalaşarsa və regional güclər arasında minimum konsensus əldə olunarsa, bu gün fəaliyyətsiz görünən platforma gələcəkdə mühüm koordinasiya mərkəzinə çevrilə bilər".

Azərbaycanın son illərdə həyata keçirdiyi xarici siyasət xətti ilə tam uzlaşır. Bakı humanitar təşəbbüslərdə iştirak etməyə hazır olduğunu nümayiş etdirir, lakin siyasi və hüquqi baxımdan qeyri-müəyyən layihələrə təmkinlə yanaşır. Qarabağın və Şərqi Zəngəzurun bərpasında əldə edilən təcrübə təsdiqləyir ki, postmünaqişə dövründə gerçəkləşdirilən yenidənqurma prosesi ilk növbədə təhlükəsizlik, idarəetmə və hüquqi legitimlik tələb edir. "Sülh Şurası" niyə böyük hay-küylə yaradıldığına gəldikdə isə cavab kifayət qədər sadədir. Çünki təşəbbüsün məqsədi yalnız pul toplamaq deyildi. "Sülh Şurası" ABŞ-nin Yaxın Şərqdə müharibədən sonrakı düzənin formalaşdırılmasında aparıcı rolunu nümayiş etdirmək, regional və qlobal aktorları vahid platforma ətrafında toplamaq, Qəzzanın gələcəyi ilə bağlı alternativ idarəetmə modelini müzakirəyə çıxarmaq cəhdi idi. Bu baxımdan təşkilatın yaradılması siyasi baxımdan tamamilə məntiqlidir. Lakin geosiyasi reallıqlar hər zaman olduğu kimi siyasi niyyətlərdən daha mürəkkəbdir. Reallıq ondan ibarətdir ki, yekun sülh əldə olunmayıb və deməli, müharibə dayanmayıb, təhlükəsizlik mexanizmi qurulmayıb, maliyyə öhdəlikləri kağız üzərində qalıb və nəticədə "Sülh Şurası" hələlik faktiki fəaliyyət mərhələsinə keçə bilməyib. Hazırda isə "Sülh Şurası" daha çox reallaşma mərhələsini gözləyən geosiyasi konsepsiya təsiri bağışlayır".

❑ **Cavanşir ABBASLI,**
'"Yeni Müsavat"

Azərbaycana "hədəfdəsiniz" xəbərdarlığı

Bakını "Rusiya ilə sərhəd boyunca "əjdaha dişləri", Xəzər sahili boyunca isə artilleriya mövqeləri qurmağa" səsləyən NATO ölkəsinin ekspertinin narahatlığına əsas varmı, yoxsa...

Avropanın yüksək vəzifəli rəsmiləri "The Wall Street Journal" nəşrinə bildiriblər ki, Rusiya yaxın 12 ay ərzində NATO-ya hücum edə bilər. Bu fonda Alyans Baltik ölkələrinin müdafiəsi üçün qoşunların sürətlə yerləşdirilməsinə dair plan hazırlamağa başlayıb. Bu barədə "Reuters" agentliyinin mənbələri məlumat veriblər.

Həqiqətən də, son vaxtlar bir çox şərhçilər Rusiyanın NATO-nun şərq cinahındakı ölkələrə qarşı, birbaşa müharibə olmasa da, ən azı genişmiqyaslı təxribat xarakterli addımlara hazırlaşdığına dair əlamətlərdən danışırlar.

Latviyalı siyasi analitik, filologiya elmləri doktoru, vaxtilə ABŞ-ın Milli Demokratiya İnstitutunun (NDI) əməkdaşı olmuş Aleks Qriqoryevs pressklub.az-ın bu istiqamətdə suallarına ilginc cavab verib. O, ilk növbədə qeyd edib ki, bu gün bir çoxları Rusiyanın Baltik ölkələrinə hücum edib-etməyəcəyini soruşur. Halbuki müasir geosiyasi reallıqlar kontekstində məsələ daha geniş qoyulmalıdır. Ukraynada itirilən nüfuzu bərpa etmək üçün Rusiyaya tarixində dəfələrlə rast gəlinən "kiçik qalibiyyətli müharibə" lazımdır: "Mən Rusiyanın mümkün hücum hədəflərini iki qrupa bölərdim: NATO ölkələri və digər qonşu dövlətlər. Putin Astanada çıxışı zamanı bəyan etdi ki, Qazaxıstan vaxtilə Rusiya dövlətinin tərkib hissəsi olub. Bu, ərazi iddiası və siyasi mesajdır. Bunu "Rusiyanın Qazaxıstan ərazisinə hüququ var" kimi başa düşmək lazımdır. Əgər nə vaxtsa belə bir hücum baş versə, Çin Qazaxıstanı hərbi yolla müdafiə edəcək, yoxsa diplomatik qınaqla kifayətlənəcək? Bu, maraqlı sualdır və cavabı hələ məlum deyil", - ekspert qeyd edir.

Onun sözlərinə görə, Gürcüstan faktiki olaraq artıq Rusiyanın nəzarəti altına düşüb.

"Gürcüstan ərazisinin 20 faizi açıq və birbaşa şəkildə işğal olunub, qalan hissə isə dolayı yolla idarə olunur. Ermənistan iqtisadi təzyiqlərə məruz qalır, hətta ona qarşı birbaşa hərbi təhdidlər də səsləndirilir. Onu kim qoruyacaq? Çətin ki, Putinin müttəfiqi olan İran onu qorusun. Mən Azərbaycanın yerində olsaydım, çoxdan Rusiya ilə sərhəd boyunca "əjdaha dişləri" yerləşdirər, Xəzər sahili boyunca isə artilleriya mövqeləri qurardım. Rusiya Azərbaycana hücum edərsə - bunu mümkün, hətta ehtimal olunan variant hesab edirəm - Türkiyə onunla açıq hərbi qarşıdurmaya gedəcəkmi? Bu da ciddi sualdır", - deyə ekspert bildirib.

"Alyans" Araşdırmalar Mərkəzinin rəhbəri Abutalıb Səmədov "Yeni Müsavat"a bildirdi ki, əslində əvvəllər Rusiyanın ərazisi olan torpaqları özünə birləşdirmək istəyini prezident Vladimir Putin 2022-ci ilin iyununda gənc sahibkarlarla görüşdə açıq şəkildə bəyan edib: "Putin demişdi ki, keçmiş Rusiya torpaqlarını toparlamaq missiyası indi bizim üzərimizə düşüb. Hətta onu da demişdi ki, bir vaxtlar Pyotrın başlatdığı həmin missiyanı davam etdirmək bizim üzərimizə düşür. Ancaq Putin bunu deyəndə Ukrayna müharibəsi yenicə başlamışdı. Rusiya təbiidir ki, indiki qədər yaralar almamışdı. Artıq 2026-cı ildir, Rusiyanın Ukrayna cəbhəsində həm böyük yaraları, həm də uğurları var. Uğurlardan danışsaq, təxminən 122-123 min kvadrat kilometr torpaq işğal edib və ərazidə Ukraynanın təbii sərvətlərinin təqribən yarısı yerləşir. Yəni 13 trilyon dollarlıq sərvət də Rusiyanın əlinə keçib. Bu gün Rusiyanın əsas hədəfi həmin o 122-123 min kvadrat kilometr ərazini müəyyən dəyişikliklərlə öz əlində saxlamaqdır. Yəni Donbasdan 15-17 faiz ərazini özünə birləşdirib digər tutduğu ərazilərdən imtina eləmək istəyir. Bu, əslinə qalsa, Rusiya üçün indiki şəraitdə uğur sayıla bilər. Ancaq bundan sonra Rusiya irimiqyaslı müharibələrə cəsarət eləyə bilərmi? Ən azından yəqin ki, bir müddət yox. Rusiyanın yaralarını sağaltmaq üçün vaxt lazımdır. Rusiya iqtisadiyyatı həddən artıq ağır vəziyyətdədir və növbəti müharibəyə dayanması qeyri-mümkündür. Putinin bu gün sülhpərvər olmasının səbəblərindən biri də odur ki, Rusiya iqtisadiyyatı ilin sonuna qədər birtəhər bəlkə dayandı. Ondan sonra müharibə aparmağa Rusiyanın gücü qalmayacaq".

Ekspert qeyd etdi ki, Rusiyanın ciddi şəkildə narazı olduğu keçmiş ittifaq respublikaları var və bunun başında da Moldova və Ermənistan gəlir: "Rusiyanın birinci hədəfi Moldovadır. Onun Rumıniyaya birləşmək istəməsi Rusiyanı aktiv addımlara məcbur edir. Çox güman ki, Dnestryanı bölgəni Rusiyaya birləşdirmək üçün yaxın zamanlarda müəyyən addımlar atılacaq. Putinin Dnestryanı əhalisinin Rusiya vətəndaşı olmasını asanlaşdırmaq barədə fərmanı da bu prosesin başlanğıcı kimi sayıla bilər. Bu gün ən böyük təhlükə altında olan dövlət Moldovadır. Rusiya Azərbaycandan da narazıdır. Ən böyük qorxusu da Cənubi Qafqazı tamamilə itirməkdir. Lakin bunun üçün Rusiyanın müharibə edəcəyini düşünmək mümkün deyil. Bütün gücünü Rusiya bu gün sərf edir ki, Ermənistanda keçirilən seçkilərdə rusiyayönümlü qüvvələr qalib gəlsinlər. Hərçənd ki rəy sorğularına görə, Rusiyanın bu istəyi reallaşmayacaq. Azərbaycana qarşı müharibə etmək istiqamətində isə Rusiyada müəyyən dairələr düşünə bilərlər. Ancaq ən azı yaxın illərdə Rusiyanın buna cəsarət edəcəyini düşünmürəm. Çünki Şuşa Bəyannaməsi var və Azərbaycanın Türkiyə kimi müttəfiqi mövcuddur. Eyni zamanda ABŞ ilə də kifayət qədər yaxın münasibətlərimiz var. Çin də Azərbaycana qarşı hərbi addımı çox ciddi narazılıqla qarşılaya bilər. Çini qarşısına almaq Rusiyanı həddən artıq ağır duruma sala bilər. Bütün bunları nəzərə alsaq, Ukrayna müharibəsinin başa çatmasından sonrakı beş-altı ildə Rusiyanın növbəti böyük müharibəyə başlaya biləcəyini düşünmürəm. Lakin Rusiya təhlükəsi həmişə var və biz bu təhlükənin qarşısını almaq üçün daim düşünməliyik, zəruri addımları atmalıyıq".

❑ **Etibar SEYİDAĞA,**
"Yeni Müsavat"

Kaleb Orrun səfərində verilən mesajlar

Dövlət katibinin köməkçisi ABŞ-nin Azərbaycan üzərindən regional enerji, logistika və ticarət əməliyyatlarının həyata keçirilməsində maraqlı olduğunu göstərdi

Amerika Birləşmiş Ştatlarının dövlət katibinin iqtisadiyyat, enerji və biznes məsələləri üzrə köməkçisi Kaleb Orrun Azərbaycana üçgünlük səfəri başa çatıb.

Səfərin əsas məqsədi iqtisadi, enerji və biznes sahələrində əməkdaşlıq məsələlərinin müzakirəsi olub. Yada salaq ki, Azərbaycan Prezidenti İlham Əliyev Kaleb Orrun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Söhbət zamanı "Bakı Enerji Həftəsi"nin qlobal enerji məsələləri barədə fikir mübadiləsi aparmaq, həmçinin dünyanın qabaqcıl enerji şirkətləri, dövlət qurumları, investorlar və sənaye mütəxəssisləri arasında əməkdaşlığın perspektivlərini müzakirə etmək üçün uğurlu platforma olduğu vurğulanıb.

Görüşdə Azərbaycan-ABŞ əlaqələrinin hər iki ölkənin dövlət başçılarının səyləri nəticəsində yeni inkişaf mərhələsinə qədəm qoyduğu qeyd edilib. Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub.

Qeyd edək ki, Kaleb Orrun Azərbaycana səfəri Tramp administrasiyasının Cənubi Qafqaza maraqlarının artması kimi qiymətləndirilir. ABŞ-nin dövlət katibi Marko Rubionun mayın 27-də Ermənistana səfərindən dərhal sonra öz köməkçisini Azərbaycana göndərməsi regionun geosiyasi və geoiqtisadi potensialının Vaşinqton üçün strateji əhəmiyyət kəsb etməsini təsdiqləmiş oldu.

Xüsusilə də Azərbaycanla Ermənistan arasında formalaşan sülh mühiti və sabitlik çoxşaxəli enerji layihələrinin, nəqliyyat-ticarət marşrutlarının yaradılması üçün yeni imkanlar açıb. Bu da öz növbəsində, bölgəni xarici investorlar üçün cəlbedici edir.

Kaleb Orrun Bakıya səfəri və keçirdiyi görüşlər ABŞ-nin Azərbaycan üzərindən regional enerji, logistika, müxtəlif sahələr üzrə infrastrukturun qurulması və ticarət əməliyyatlarının həyata keçirilməsində maraqlı olduğunu göstərdi.

Azərbaycan yaxın gələcəkdə Avropa və Çin arasında əsas nəqliyyat-ticarət marşrutuna çevriləcək Orta dəhlizin üzərində yerləşməklə Trans-Xəzər nəqliyyat dəhlizinin keçid qapısı rolunu oynayır. Bu kontekstdə Cənubi Qafqazda və Mərkəzi Asiyada maraqları olan böyük dövlətlər Azərbaycanla əməkdaşlığa üstünlük verir.

Zəngəzur dəhlizinin açılması ilə bağlı Azərbaycanın təşəbbüsünün ABŞ tərəfindən dəstəklənməsi də bununla bağlıdır. Ona görə də yaxın perspektivdə Azərbaycanla ABŞ arasında əhəmiyyətli biznes layihələrinin həyata keçirilməsi ilə bağlı razılaşmaların əldə olunması gözlənilməndir.

ABŞ-nin Azərbaycandakı yeni səfiri kimdir?

ABŞ Prezidenti Donald Tramp ABŞ-nin Azərbaycandakı səfiri vəzifəsinə Aleksandr Aldenin namizədliyini irəli sürüb.

Aleksandr Alden hazırda "GeoStrategy Initiative"də qeyri-rezident baş elmi işçi kimi fəaliyyət göstərir və eyni zamanda "Palantir Technologies" şirkətində baş müşavir vəzifəsində çalışaraq müttəfiq hökumətlər və özəl sektor tərəfdaşları ilə əməkdaşlığın genişləndirilməsi istiqamətində fəaliyyət göstərir.

Alden daha əvvəl ABŞ Dövlət Departamenti, Milli Təhlükəsizlik Şurası və Müdafiə Nazirliyində yüksək vəzifələrdə çalışıb. O, Dövlət Departamentində münaqişə və sabitləşdirmə əməliyyatları üzrə müvəqqəti köməkçi katib kimi 2020-ci il ABŞ-nin Münaqişələrin Qarşısının Alınması və Sabitliyin Təşviqi Strategiyasına rəhbərlik edib.

Avropa məsələləri üzrə dövlət katibinin müavini vəzifəsində çalışdığı dövrdə ABŞ-Avropa İttifaqı münasibətlərinin gücləndirilməsi və Çinin regiondakı təsirinə qarşı əməkdaşlıq mexanizmlərinin qurulması istiqamətində fəaliyyət göstərib. Məhz onun dövründə 2020-ci ildə ABŞ-Aİ Çin dialoqu yaradılıb.

Milli Təhlükəsizlik Şurasında yüksələn texnologiyalar üzrə baş direktor və müdafiə siyasəti direktoru kimi çalışan Alden kritik və yeni texnologiyalar üzrə idarələrarası komitənin yaradılmasına rəhbərlik edib. O, həmçinin ABŞ müdafiə strategiyası, nüvə siyasəti və raketdən müdafiə sənədlərinin hazırlanmasında iştirak edib.

Dövlət sektorundan kənarda isə Aleksandr Alden təhlükəsizlik və beynəlxalq münasibətlər sahəsində müxtəlif analitik və rəhbər vəzifələrdə çalışıb. O, "American Affairs" nəşrində milli təhlükəsizlik redaktoru, Claremont İnstitutunda Linkoln təqaüdçüsü, eləcə də bir sıra strateji araşdırma və konsaltinq qurumlarında rəhbər vəzifələr tutub.

Aleksandr Alden ABŞ-nin Johns Hopkins Universitetində siyasi elmlər üzrə magistr dərəcəsi alıb, burada doktorantura tədqiqatları aparıb və beynəlxalq münasibətlər üzrə dərslər keçib. Bakalavr təhsilini isə Southern İllinois Universitetində siyasi elmlər və fəlsəfə ixtisasları üzrə tamamlayıb.

Qeyd edək ki, Aleksandr Aldenin namizədliyinin təsdiqlənməsi üçün ABŞ Senatının razılığı tələb olunur.

ABŞ-nin Azərbaycandakı əvvəlki səfiri Mark Libbi 2024-cü ilin dekabrında vəzifəsindən gedib.

Hazırda ABŞ-nin Azərbaycandakı səfirliyinə müvəqqəti işlər vəkili Emi Karlon rəhbərlik edir.

❑ "Yeni Müsavat"



Vardanyanın müraciətinin xain şifrələri

Bakıda həbsdə olan separatçı rejim təmsilçisi revanşistləri ruhlandırmağa çalışır - Bakıdan reaksiyalar

Bakıda saxlanılan erməni milyarder və separatçı rejim təmsilçisi Ruben Vardanyanın ötən həftəsonu yeni müraciəti yayılıb. Yekramos.org saytı xəbər verib ki, erməni dilindəki müraciətində Vardanyan əsasən bir təhlükəli fikri önə çəkib: "Müharibə bitməyib".

Onun iddiasına görə, bu müharibə artıq klassik hərbi toqquşmalar şəklində deyil, daha mürəkkəb və görünməyən formalarla davam edir. Vardanyan Ermənistan uğrunda böyük güclərin - Rusiya və Avropa İttifaqı arasında gedən proseslərə işarə edərək "müdrikcə" bildirib ki, bu dartışmanın nəticəsində ölkə "üçüncü qüvvənin təsiri altına düşə bilər".

Onun fikrincə, bu "üçüncü qüvvə" Ermənistanı iqtisadi və siyasi baxımdan tam asılı vəziyyətə salmağa çalışır. Yekunda həbsdəki separatçının əsas mesajı belədir: Ermənistanın qarşısında duran təhlükələr realdır və bu təhlükələrin qarşısını almaq üçün cəmiyyət passiv mövqedən imtina etməlidir. Əks halda, ölkəni daha ağır və dönüşü olmayan nəticələr gözləyə bilər.

Vardanyanın bu müraciəti onun Ermənistandakı kritik seçkilərlə bağlı "xalqı oyatmaq" istəyi kimi təqdim olunsa da, əslində çağırışlarda təhlükəli niyyətlər aşkar görünməkdədir. Onun xüsusi vurğuladığı "müharibə bitməyib" tezisi hazırda Paşinyana qarşı müxalifət olan revanşist rusiyapərəst qüvvələrin əsas şüarıdır, Vardanyan da onlara dəstəyi bu tezislə göstərir. Onun Ermənistanın guya "üçüncü qüvvənin" nəzarətinə keçəcəyi ilə bağlı iddiasında Bakı və Ankaranı nəzərdə tutduğu şübhə doğurmur. Həmçinin o, bu cür qeyri-müəyyən və konkret əsaslandırmadan uzaq iddialarla ictimai rəyi yönləndirmək və xarici düşmən obrazı yaratmaq istəyib, öz qısasçı ideoloji xəttini isə legitimləşdirməyə çalışıb.

Sabiq millət vəkili, tanınmış hüquqşünas Qulamhüseyn Əlibəyli "Yeni Müsavat"a bildirdi ki, Ruben Vardanyanın yeni müraciəti Ermənistanın strateji seçimi haqqında həmin ölkə daxilində mövcud olan, mahiyyətcə bir-birinin tam əks qütblərində dayanan iki fərqli mövqe, iki fərqli yanaşmanı bir daha ifadə edir: "Ermənistan daxilində ciddi ideoloji və siyasi mübahisələr yaradıb. Bu mübahisənin bir tərəfində Rusiyanın regiona və Ermənistana təsirinin tədricən azaldılması və Qərbə inteqrasiya, regional kommunikasiyaların açılması, Azərbaycan və Türkiyə ilə münasibətlərin normallaşdırılması siyasətini müdafiə edən baş nazir Paşinyanın rəhbərlik etdiyi hazırkı hakimiyyət, digər tərəfində isə Ermənistanın Rusiyadan asılılığını saxlamaq, Azərbaycan və Türkiyə ilə qarşıdurma və yeni müharibə tərəfdarı, regional kommunikasiyaların açılmasına qarşı olan rusiyayönümlü revanşist qüvvələr durur. Başqa sözlə, hazırkı Ermənistan hakimiyyəti regional inteqrasiya və sülh, qonşu dövlətlərlə münasibətlərin normallaşdırılması yolu ilə ölkənin təhlükəsizliyinin və inkişafının təmin olunacağını düşünür. Revanşist qüvvələr isə bunun yeni asılılıqlara və risklərə yol açа biləcəyini hesab edir. Məhz revanşist qüvvələr Azərbaycanın öz ərazilərini işğaldan azad etməsi ilə barışmaq istəmir və hazırkı hakimiyyətin apardığı siyasətin Ermənistan üçün təhlükəli olması, milli təhlükəsizlik, suverenlik və geosiyasi risklər yaratması barədə fikirlər səsləndirirlər. Vardanyanın son müraciəti də məhz bu ikinci yanaşmanın ifadəsidir".

Q.Əlibəyli diqqətə çatdırdı ki, Vardanyanın müraciətində səslənən "müharibə bitməyib" və "üçüncü qüvvədən asılılıq" kimi ifadələr həm geosiyasi, həm də daxili siyasi baxımdan qiymətləndirilməlidir: "Hesab etmək olar ki, geosiyasi baxımdan "müharibə bitməyib ifadəsi" region uğrunda ABŞ və Avropa ilə Rusiya arasında kəskin qarşıdurmanın olmasını, hərbi əməliyyatlar baş verməsə də, siyasi, iqtisadi, informasiya və diplomatik mübarizənin davam etməsini və bu fonda Ermənistanın gələcək strateji seçiminin qəti müəyyən olunmamasını nəzərdə tutur. Bu, son dövrlər tez-tez işlədilən "hibrid müharibə" konsepsiyasına da uyğun gəlir. Bu konsepsiyaya görə, dövlətlər arasında mübarizə yalnız silahlı qarşıdurma ilə deyil, iqtisadi asılılıq, informasiya təsiri, siyasi nüfuz və diplomatik təzyiq vasitəsilə də aparılır. Müraciətin ən çox müzakirə olunan növbəti hissəsi Ermənistanın "üçüncü qüvvənin" nəzarətinə keçə biləcəyi barədə xəbərdarlıqdır. Vardanyanın "üçüncü qüvvə" dedikdə, Türkiyə və Azərbaycanı nəzərdə tutduğu şübhə doğurmur. O hesab edir ki, Türkiyə və Azərbaycanın Cənubi Qafqazda söz sahibi olan dövlətlərə çevrilməsi, Ermənistanın quru yolla dünyaya çıxışının əsasən bu iki dövlət vasitəsilə təmin olunması kontekstində Ermənistan nə Rusiyanın, nə də Avropa İttifaqının təsir dairəsinə daxil olmayıb, iqtisadi və siyasi baxımdan Türkiyə-Azərbaycan birliyindən asılı vəziyyətə düşə bilər. Vardanyanın Rusiyanın emissarı olmasını nəzərə alsaq, bu müraciətin daha çox qarşıdakı seçkilərdə revanşistlərin müdafiəsi və seçkilərin nəticələrinə təsir göstərmək məqsədilə edildiyi qənaətinə gələ bilərik".

ƏHD Partiyasının baş katibi, politoloq Niyaməddin Orduxanlı hesab edir ki, bu gün hərbi cinayətlər törətmiş və qanunla cinayətləri sübuta yetirilmiş separatçı Ruben Vardanyanın Bakıdan verdiyi bəyanat təsadüfi deyil: "Vardanyanın bəyanatı iyunun 7-də Ermənistanda keçirilən gərgin parlament seşkilərinə hesablanmış addımdır. Məqsədli şəkildə müraciət edərək "müharibə bitməyib" mesajını verməklə Ermənistanda keçiriləcək bu seçkilərdə iştirakçı olan revanşist qüvvələrə rəhbərlik edən Robert Köçəryana verilmiş dəstəkdir. Vardanyanı hansı qüvvələr Qarabağa göndərmişdi? Əlbəttə ki, Rusiya. Rusiya Vardanyanı o dövrdə Nikol Paşinyan üçün alternativ hazırlayırdı. Onu Qarabağda vəzifəyə gətirərək, gələcəyə yönəlik plan qurурdu. Paşinyana qədər Ermənistanda hakimiyyətə gələn prezidentlər məhz Qarabağdakı fəaliyyətinin nəticəsi olaraq Ermənistanda prezidentliyə gətirilmişdilər. Vardanyan öz tərəfdarlarına açıq mesaj verir ki, seçkidə rusiyameylli qüvvələrə səs verin".

❑ **Cavanşir ABBASLI,**
Musavat.com

Qaçqın statuslu dövlət katibi - Rubio kimdir...

ABŞ dövlət katibinin ailəsinin Kubadan şübhəli köç tarixi və babasının Fidelə "işləməsinin" hekayəsi

"Vaşinqton Post"da 20 oktyabr 2011-ci ildə çap olunan məqalə ABŞ-ni silkələyir. "Marko Rubionun cəlbedici ailə hekayəsi faktları bəzəyir, sənədlər göstərir" başlıqlı yazıda sənədləşdirilmiş sübutlar təqdim edilir. Rubionun siyasi karyerasını cilalayarkən tez-tez təkrarlanan, "Fidel Kastro hakimiyyətə gəldikdən sonra ailəsinin Kubanı tərk etmək məcburiyyətində qalması" ilə bağlı iddialar alt-üst olunur. Həmin sənədlərə görə, ailə Kuba inqilabından təxminən 2,5 il əvvəl, 1956-cı ildə ABŞ-yə gəlib...

Miqrantların düşməni olan köçkün...

2016-cı il martın 5-də isə "Nyu-York Tayms" nəşrində dərc olunan məqalə növbəti bir "şillə" sayıla bilərdi. "Marko Rubionun siyasəti vaxtında həyata keçirilsəydi, bu ölkəni babası kimi insanların üzünə bağlaya bilərdilər" başlıqlı yazı çap edilir. Məqalədə Rubionun şəxsi hekayəsi ilə antimiqrant mövqeyi arasındakı ziddiyyətə diqqət çəkilir.

Bəli, bu, o zaman idi ki, Marko Rubio 2016-cı ildə Respublikaçılar Partiyasından Trampa qarşı prezidentlik kampaniyası zamanı sərt miqrasiya siyasətini müdafiə etmişdi. Həmin dövrdə gənc senator immiqrasiya qanunlarını sərtləşdirmək üçün Suriya və İraqdan olan qaçqınları qəbul etməməyə çağırırdı. Axı bu necə ola bilərdi? Ailəsi Kubadan köçmüş Marko özü qaçqın axınına qarşı çıxırdı...

Babasını ona xatırladanda isə Rubio "o vaxtla indi arasında fərq var və İslam dövləti kimi xarici elementləri cəlb edə biləcək sızmalar çox təhlükəlidir" deyərək məsələni yayındırmağa çalışmışdı. O, "O zamanlar, Fidel Kastronun adına silahdan atəş açan və insanları öldürən qatillərlə ABŞ-yə sızmaq cəhdləri ümumi deyildi" söyləyərək tutduğu mövqeyə bəraət qazandırmaq istəmişdi.

Rubio ailəsinin Birləşmiş Ştatlara köçü haqda da ziddiyyətli məlumatlar var. Xüsusən də onun babası ilə bağlı indiyə qədər skeptik yanaşmalar qalmaqdadır. Bu xüsusda yenə də "Nyu-York Tayms" yazır: "Cənab Qarsia 1962-ci ildə Mayamiyə enəndə "soyuq müharibə" paranoyası ən yüksək həddə çatmışdı və ABŞ rəsmiləri Kuba casuslarının ölkəyə sızma cəhdləri ilə bağlı yüksək səviyyədə xəbərdar idi. Kuba raket böhranına isə bir neçə həftə qalmışdı..."

Hətta Marko Rubioya eyhamla replika verilir ki, müdafiə etdiyi antiimmiqrant siyasəti keçmiş dövrlərdə olsaydı, babasını tanımazdı. Çünki 1984-cü ildə babası öləndə 13 yaşlı Marko çox sarsılır. Nəticədə imtahanlarda uğursuz olur, futbol komandasını tərk edir. Bəs nə idi babası Qarsiya haqda deyilənlər?

Babası Kastronun casusu olub?

ABŞ nəşri Kuba mənbələrinin daha etibarlı olduğuna inanaraq yazır ki, bu gün ABŞ dövlət katibi olan Marko Rubionun babası Qarsiyanın Fidel Kastronun casusu olduğu haqda iddialar və şübhələr var. Buna səbəb isə onun ailəsini Birləşmiş Ştatlara köçürdükdən sonra təkbaşına Kubaya qayıdışı və orada Kastro hökumətində işləməsi, bir müddət keçdikdə yenidən Amerikaya dönmək istəməsidir.

...Pedro Viktor Qarsiya həyat yoldaşı və yeddi uşağı, o cümlədən Rubionun anası ilə birlikdə 1956-cı ildə - Batista rejimi dövründə Kubadan Mayamiyə mühacirət edir. Qarsiya bu gediş zamanı "yaşıl kart" alır. Sonra ABŞ-də sorğu-sual olunur. Deyir ki, o, inqilabdan sonra "uşaqlarına yük olmamaq üçün" iş axtarmaq məqsədi ilə Kubaya qayıdıb. Bu səbəbdən də ABŞ-də yaşamaq hüquqlarını itirir. Kastro hakimiyyəti dövründə təxminən üç il Kuba Nəqliyyat Nazirliyində mühasib işləyib. ABŞ-yə qayıdanda Qarsiya yenidən dindirilərkən "Kastronun marksist olduğunu anladığı üçün yenidən Mayamiyə qaçdı" söyləyib. Şübhəsiz ki, onun göstərdiyi arqument deyildi. Kastronun kommunist olduğunu kim bilmirdi ki?!

Bu dindirilmə zamanı Qarsiya haqda yaranan təəssürat o idi ki, o, Kastro hökuməti üçün işləyən biridir və təhlükəsizlik riski yarada bilər. "Nyu-York Tayms"ın səs yazılarına əsaslanan məqaləsində xatırladılır ki, "ərizəçinin ABŞ-dən deportasiya edilməsinə və ölkədən çıxarılmasına göstəriş verilib" hökmünü başa düşüb-düşmədiyini bir daha soruşduqda Qarsiya faciəvi şəkildə "Bəli, başa düşürəm" cavabını verib. Məqalə daha sonra maraqlı və müəmmalı şəkildə davam edir: "Bu, onun Amerika hekayəsinin sonu ola bilərdi. Amma həmin gün Biskeyn prospektindəki immiqrasiya ofisində kimsə - sənədlərdə kimin və nə üçün dəqiq göstərilmir - fikrini dəyişib. Qarsiyaya şərti azadlığa buraxılma statusu verilir. Lakin həmin sənədlərdə dəqiq nə olduğu həqiqətən də sirrdir".

Bununla belə, məqalə bu sirr üzərində dayanmamağı seçir və davam edir: "Son nəticədə, miqrasiya orqanlarına təsir göstərə biləcək fakt cənab Qarsiyanın fiziki vəziyyətinə yazıqlıq hissi idi. 1,68 metr boyu və cəmi 59 kiloqram ağırlığında olan Qarsiya bir qəzada ayağından zədələnib. O, skolioz və amfizem idi. Qarsiyanın ABŞ-də illərdir qeyri-müəyyən qalan hüquqi statusu nəhayət, 1966-cı il Kuba inteqrasiya qanunu sayəsində rəsmiləşdirilib və onun daimi rezidentliyi 13 sentyabr 1967-ci ildə təsdiqlənib".

Ata barmen, ana isə...

Bu gün o babanın nəvəsi olan dövlət katibi Marko Rubioya gəlincə, 28 may 1971-ci ildə Florida ştatının Mayami şəhərində anadan olub. Rubionun atası Mario Rubio Reina da barmen, anası Orieles Rubio isə ailəni dolandırmaq üçün hotellərdə xadimə işləyib. Oğulları üçün daha yaxşı həyat təmin etmək istəyən ailə Rubionun səkkiz yaşı olanda Las-Veqasda daha yaxşı gələcək axtarışına çıxırlar. Lakin ümidləri puç olur və ailə 1985-ci ildə Mayamiyə qayıtmaq məcburiyyətində qalır. Rubio 1989-cu ildə Cənubi Mayami Liseyini bitirir və sonra Florida Universitetində siyasi elmlər üzrə bakalavr dərəcəsi alır. 1996-cı ildə isə Mayami Universitetinin Hüquq Məktəbində hüquq dərəcəsi alır. Rubionun siyasətə marağı 1998-ci ildə Qərbi Mayami şəhərinin komissarı seçiləndə reallaşıb. Rubionun dünyagörüşü onun öz tarixi ilə formalaşıb.

Rubio siyasi karyerasına 2000-ci ildə Florida Nümayəndələr Palatasına seçildiyi zaman başlayıb, 2006-2008-ci illərdə spiker olub. 2010-cu ildə Florida ştatını təmsil edərək ABŞ Senatına seçilib, 2025-ci ilə qədər bu vəzifəni tutub. 21 yanvar 2025-ci ildə vəzifəsinə başlayıb. Bu təyinatla o, ABŞ tarixində ən yüksək səviyyəli "İspan Amerikalı" olub. "İspan" termini latınları təsvir etmək üçün xüsusi olaraq istifadə olunur. Rubio 2016-cı il ABŞ prezident seçkisində Respublikaçılar Partiyasından namizəd olub, lakin öz ştatında onu məğlub etməyi bacaran Trampa uduzub.

Qafqaza gələn, Kubanı hədəf alan kubalı

Rubio daxili siyasətdə abort və eynicinsli nikah kimi məsələlərin Amerika dəyərlərinə zərər verdiyini iddia edərək daha ənənəvi ailə dəyərlərinin tərəfdarıdır. O, zorlama və ya qohumluq əlaqəsi qurbanlarının abort hüququ ilə bağlı qəti mövqeyini saxlayır.

Rubio əvvəlki dövlət katibləri ilə müqayisədə daha böyük təcrübəyə malik olduğu üçün həm Respublikaçılar, həm də Demokratlar tərəfindən dəstək toplayıb.

Rubio son olaraq Cənubi Qafqaz siyasəti və Kuba barəsində bəyanatları ilə gündəmə gəlib. Dövlət katibi İrəvana 1 saatlıq spontan səfər edərək Paşinyana dəstəyi, Azərbaycan xalqına isə Qurban bayramı təbriki ilə son günlərdə medianın diqqət mərkəzində olub.

Ən son açıqlaması isə Kuba ilə bağlıdır. Bildirib ki, ABŞ administrasiyası Kuba ilə danışıqları davam etdirməyi planlaşdırır. "Biz onlarla danışacağıq və bunun üzərində işləməyə davam edirik. Biz Kuba xalqı üçün yaxşı bir nəticə istəyirik. Kuba bizim sahillərimizdən cəmi 90 mil (təxminən 150 km) məsafədədir və sahillərimizdən 90 mil uzaqlıqda uğursuz bir dövlətin mövcudluğu ABŞ-nin milli təhlükəsizliyinə təhdid yaradır", - deyə Rubio bildirib.

Rubio çıxışında siyasi elita ilə əlaqələri olan Kuba biznes strukturu - GAESA konqlomeratını hədəfə alıb. O bildirib ki, təşkilatın aktivləri 18 milyard dollardır və ada iqtisadiyyatının 70%-nə nəzarət edir: "Onlar hotellərdən, tikintidən, banklardan, mağazalardan və hətta qohumlarınızın ABŞ-dən sizə göndərdiyi puldan qazanc əldə edirlər, hər şey, tamamilə hər şey onların əlindən keçir. Onlar bu pul köçürmələrindən müəyyən faiz götürür, lakin GAESA-nın gəlirlərinin heç biri sizə çatmır".

Dövlət katibi həmçinin yanvar ayında başlayan və ABŞ-nin adaya neft tədarükünün blokadası səbəbindən onsuz da qeyri-sabit olan elektrik şəbəkəsinin dağılması nəticəsində ölkənin böyük bir hissəsinə təsir edən kütləvi elektrik kəsintisindən danışıb: "Gündə 22 saat elektriksiz yaşamağa məcbur olmanızın səbəbi ABŞ-nin neft blokadası ilə bağlı deyil. Bildiyiniz kimi, illərdir elektrik kəsintilərindən əziyyət çəkirsiniz. Elektrik enerjinizin, yanacağınızın və ya qidanızın olmamasının əsl səbəbi ölkənizi idarə edən insanların milyardlarla dollar oğurlaması, lakin xalqa kömək üçün bir qəpik belə istifadə etməməsidir. Kuba xalqına zəruri mallar şəklində 100 milyon dollarlıq yardım Katolik kilsəsi və ya digər xeyriyyə qrupları vasitəsilə paylanmalıdır. Çünki GAESA onları oğurlayıb mağazalarda satdıracaq. Prezident Tramp ABŞ və Kuba arasında münasibətlər üçün yeni bir format təklif edir. Lakin bu, GAESA ilə deyil, birbaşa sizinlə, Kuba xalqı ilə razılaşma olmalıdır".

Trampın varisi

Nəhayət, ötən həftə ABŞ Prezidenti Donald Trampın varisi mövzusu yenidən gündəmə gəldi. Bəllidir ki, vitse-prezident Vens Respublikaçı Partiyanın 2028-ci il sonrası ən güclü namizədi kimi göstərir. Lakin Ağ Ev daxilində onun liderlik qabiliyyəti, sosial media istifadəsi və siyasi dözümlülüyü ilə bağlı suallar qalır. Eyni zamanda Venslə dövlət katibi Marko Rubio arasında səssiz rəqabət də diqqət mərkəzindədir. Analitiklər yarışın artıq başladığını bildirirlər....

❑ **Emil SALAMOĞLU,**
"Yeni Müsavat"ın redaktoru

Qucaqlama turizmi

Zamin HACI
zaminhaci@gmail.com

Deyir bir nəfər ağsaqqal zəhmətkeşimiz yolda turistləri tutub, türkün məsəli, əlləşdiribdir. Mən videosunu izlədim, həqiqətən, ağsaqqal müəyyən dərəcədə əliuzunluq etmişdi, turist zənən xeylağının sinə nahiyəsinə əl atmağa çalışırdı.

Turistlər ər-arvad imişlər və velosipedlə dünya səyahətinə çıxıbmışlar. Milliyyətləri də maraqlı idi, ər alman, övrət isə yapon çıxmışdır. Az qala 2-ci Dünya müharibəsi başlamaq olardı - ağsaqqalın bədniyyət hərəkəti üzündən.

Zəhmətkeşlərimiz də bu addımı qınayır, turizm sektoruna zərbə vuracağını qeyd edirlər. Baxmayaraq ki, şayiələrə görə sonra ağsaqqal aşkar edilərək tərəfimizdən götürülmüş və tədbir görülmüşdür, turistlər isə polis orqanlarına dərin minnətdarlıqlarını çatdırmışdır. Ola bilsin gedib "Berliner Zaytunq" qəzetinə intervü də verəcəklər, bizim ictimai-siyasi asayişdən nümunə götürməyə çağıracaqlar, ondan sonra Almaniya ta dağılmayacaqdır.

Mövzu almanlardan düşmüşkən, bir şəhər əfsanəsi var, bilməyənlərə yazıram. Deyir, o vaxt Bakıdakı Hökumət Evinin tikintisində alman əsirləri işlədiblər. Bir gün əsirlərə nəzarət edən əsgər onların ciblərində-filanda sement gizlətdiyini aşkar edir, cəzalandırmaq istəyirlər, ortaya çıxır ki, əsirlər həmin sementi özləri ilə aparmır, elə tikinti meydançasında quma qatırmışlar. Bəs niyə belə gizli şəkildə, bunu əsirlər izah edir: "Sizin iş icraçıları beton qarışığına sementi az qatır, oğurlayırlar, biz isə sementi az məhlulla tikinti apara bilmərik, bu bina sonra uçar".

Ta söhbət açılıb, birini də yazım, Vüsal adlı dostum danışıb. Deyir dayım mühəndis olub, sovet vaxtı Azərbaycanda hansısa tikintini ADR-dən (1990-cı ilədək Almaniyanın şərqi, Almaniya Demokratik Respublikası adlı dövlət - Z.H.) gəlmiş mühəndislərlə birgə tikirmişlər. Almanların çox gözəl iş alətləri - çəkic, balta, vintaçan, mişar və sairə - varmış. Nahar fasiləsində almanlar alətlərini iş sahəsində qoyurlar, qayıdanda görürlər hamısı oğurlanıb. Bizim ustalar tərəfindən...

Nəsə, "Yada düşər xatirələr" verilişini dayandıraq, qayıdaq ölkəmizdə turizmin inkişafına əngəl törədən camaat mövzusuna. Həqiqətən, hökumət bu işə külli miqdarda vəsait xərcləyir, lakin xalq nədənsə dəstəkləmir. Gah kimisə şortikdə tutub döyürlər, gah ağacın altındakı kölgəni satmağa cəhd edirlər. Turistlər də nəticədə çıxır gedir başqa diyarlara. İndiki uşaqların yadında olmaz (veriliş davam edir - Z.H.), 2000-ci illərin əvvəlində dövlət başçısı gömrükçülərimizin hava limanında turistləri soymağı temasında müşavirə keçirmişdi, orada demişdi ki, bir yapon biznesmen Azərbaycana iş qurmağa gəlirmiş, bizimkilər 100 dollar istəyib, o da minib başqa uçağa, çıxıb gedib Türkiyəyə.

Yəni bizim turizm sektorunda neqativ imicimiz əslində təzə söhbət deyil. Məsələn, 1636-cı ildə Şamaxıdan keçən tanınmış alman səyyah və alimi Adam Oleari yazır ki, orada bir ağsaqqal mənim əlimdəki çubuğu qapazlamaq istəyirdi, vermədim. Maraqlı əhvalatdır, yerimiz yoxdur, hamısını yazardım.

Ancaq, necə deyərlər, zopanın iki başı var axı. Turistlər də bizim əraziyə adətən çirkin məqsədlərlə gəlirlər (hansı məqsədlərlə, yazmıram, özünüz məndən yaxşı bilirsiniz). O ağsaqqalın elədiyi hərəkət, əlbəttə, axmaq və bambılı hərəkətdir, lakin turizm potensialı baxımından bizim əcnəbilərə təklifimiz nədən ibarətdir? Bax, burada Kərəmi adətən ağlamaq tutur.

Hərçənd arada barışıq olsa Kərəm Əslini tam sərbəst qucaqlaya biləcəkdir və ağlamayacaqdır. Ən azı bu istiqamətdə müsbət irəliləyiş vardır.

P.S. *İmici düzəltmək üçün biz gərək deyək ki, el adətimizə görə turistləri mütləq əlləşdiririk, burada pis niyyət, cinsi qısnama, harrasment-zad yoxdur. Bəlkə ondan sonra xaricdən qucaqlanmaq istəyənlər bura axışar.*

Rusiyada Kremlin "yumşaq Ermənistan siyasətinə" qarşı etirazlar davam edir. ABŞ dövlət katibinin İrəvanda imzaladığı sənədlərdən sonra hakimiyyətə yaxın mediada da Kremlin xarici siyasəti sərt tənqid edilir.

Qafqaz siyasətində fiasko - suçlu tək Lavrovmu?

Rusiyada "yumşaq Ermənistan siyasətinə" etirazlar davam edir; Qərbin Moskvanı cilovlamaq strategiyası genişlənir



"Gözlərimizin qarşısında Tramp Ermənistanı bizdən "oğurladı", - deyə Geosiyasi Ekspertiza Mərkəzinin direktoru Valeri Korovin "Svobodnaya Pressa"ya bildirib. "Əlbəttə ki, bu, keçici, qısa və ya təsadüfən baş verməyib. Biz ardıcıl olaraq Ermənistanı özümüz təslim etdik. Hər dəfə Ermənistanın addımlarına qəti cavab vermək tələb olunsa da, Moskva bundan yayındı. Nəticədə, Rusiya bütün mövqelərdən imtina etdi. Biz heç vaxt Ermənistan uğrunda döyüşə girmədik. Bunu rus çarları, bolşeviklər, Stalin etmişdi. Bu bütün dünyada olduğu kimi, Cənubi Qafqazda da Rusiyanın fəlakətli xarici siyasətinin nəticəsidir".

Korovin deyib ki, Ermənistanda təəccüblü və ya sensasiyalı heç nə baş verməyib: "Bu gün Ukraynada, Moldovada, Azərbaycanda və ondan əvvəl Gürcüstanda, hətta Avrasiya İqtisadi İttifaqında müttəfiqimiz hesab etdiyimiz Qazaxıstanda da bunu görürük. Bu isə təhlükəsizliyimizi təhdid edir. Çünki dronlar bir istiqamətdən deyil, on istiqamətdən uçacaq. Və gündə 700 deyil, gündə 7000..."

Rusiya Elmlər Akademiyasının Təhlükəsizlik Tədqiqatları Mərkəzinin aparıcı tədqiqatçısı Konstantin Bloxin də baş verənlərə təəccüblənmir: "Sürpriz yoxdur. Paşinyan kimi qərbyönümlü siyasətçidən fərqli bir şey gözləmək qəribə olardı. Düşünürəm ki, bu dönüşün səbəbi hətta ABŞ deyil, Ermənistandır. Əgər ölkə özü qapılarını onlara açırsa, onları təsirini genişləndirməyə dəvət edirsə, amerikalılar niyə imtina etməlidirlər? Heç kim imtina etməyəcək.

Qafqaz adətən "Rusiyanın yumşaq qarnı" adlanır. Qərbin Rusiyanı cilovlamaq üçün bütün strategiyaları onu həm NATO, həm də NATO olmayan, məsələn, Amerika bazaları ilə əhatə etməyə əsaslanır. Bundan əlavə, vurğu sərhədlərimizin yaxınlığında daimi hərbi təlimlərə yönəlib. Təsəvvür edin ki, Qafqaz ABŞ-nin təsir dairəsindədir. Aydındır ki, onlar hərbi təlimlər keçirəcəklər. Bunlar hamısı Rusiyanı cilovlama strategiyasının əsaslarıdır. Təhdid göz qabağındadır. Təhdid artıq reallaşıb - demək olar ki, təhlükənin astanasındayıq".

Qeyd edək ki, Rusiyanın xarici siyasətində ciddi uğursuzluğa görə xarici işlər naziri Sergey Lavrov zaman-zaman ciddi tənqid hədəfi olub. Şübhəsiz ki, Rusiyanın Cənubi Qafqazdakı uğursuzluğu da onun adına yazılır. Amma Kremlin uğursuz xarici siyasətinə görə yalnız Lavrovmu günahkardır?

"Yeni Müsavat"ın sualını şərh edən **siyasi ekspert Murad Sadəddinov**un fikrincə, nəinki Ermənistan, bir çox keçmiş sovet respublikaları Rusiyadan uzaqlaşma siyasətini yürüdür. Onun sözlərinə görə, buna səbəb də Rusiyanın aqressiv addımları, ölkələrlə münasibətlərdə təzyiq metodlarından istifadə etməsidir: "Keçmiş sovet ölkələri isə belə yaşamaq istəmirlər və təhdidlərə qarşı təhlükəsizlik qarantiyaları axtarırlar. Bu da nəticədə Moskvadan uzaqlaşmağa gətirib çıxarır. Ermənistan da hazırda bu siyasəti aktiv həyata keçirən ölkələrdən biridir və seçkilər yaxınlaşdıqca, proseslər daha qabarıq görünməyə başlayır".

Ekspertin sözlərinə görə, seçkilərdə favorit olan Paşinyanın partiyası Moskvadan uzaqlaşma xəttini götürüb, uzun illər konflikti olan region ölkələri ilə münasibətlərini isə bərpa etməyə çalışır: "Ermənistan Rusiyanın təsiri altında uzun müddət Türkiyə və Azərbaycanla konfliktin qalmasına xidmət edib. Ermənistanın bugünkü rəhbərliyi isə anlayır ki, belə vəziyyət ölkəni inkişaf etdirə bilməz. Ona görə yeni siyasət yürütməyə çalışır. Sadəcə, Rusiya bununla razılaşmır. Çünki Moskva Ukraynanın, Moldovanın addımlarını indi Ermənistanda müşahidə edir".

Ekspert yada salıb ki, Rusiya bir müddət Azərbaycana da təzyiq etdi, münasibətlərdə gərginlik yaşandı, amma yeni reallıqlardan nəticə çıxardı: "Dünya dəyişib və ölkələrin seçim etmək imkanları yaranıb. Rusiya da zəifləyib və təhdidlərini həyata keçirmək imkanları məhdudlaşıb. O baxımdan, ətraf ölkələr bunu nəzərə alır. Təbii ki, bütün bunların günahkarı bütövlükdə Rusiya hakimiyyəti və onun siyasətidir. Moskva yanaşmasını dəyişməlidir".

Siyasi analitik Elxan Şahinoğlu hesab edir ki, Rusiya Prezidenti Vladimir Putin və onun yaxın dostu Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedyev Ermənistanın baş naziri Nikol Paşinyana münasibətdə "yaxşı polis" və "pis polis" rolunu oynayırlar: "Putin "İrəvan seçim etməlidir" xəbərdarlığından sonra Paşinyana telefon zəngi edərək ad günü münasibətilə onu təbrik edib, Medvedyev isə eyni gündə "Nikol, sənin sonun pis olacaq" şəkildə təhqiredici status paylaşıb. Putin bircə kəlmə dostuna desə ki, "Paşinyanın ünvanına aşağılayıcı cümlələr yazma", məsələyə nöqtə qoyar. Ancaq o bunu etmir, hətta Kremlin nəzarətindəki televiziya aparıcılarına və şərhçilərinə imkan yaradıb ki, Paşinyanı təhqirlərinə fasilə verməsinlər. Putinin özü isə Paşinyanı ad günü münasibətilə ona görə təbrik edib ki, Ermənistanda 7 iyun parlament seçkisində onun qələbə qazanacağını özü üçün müəyyənləşdirib. Aşağılar təhqir edəcək, Putinin özü isə növbəti 4 il də Paşinyanla yola davam etmək məcburiyyətində qalacaq".

Onun qənaətinə görə, Avropa İttifaqı sözdə yox, əməldə Ermənistan hökumətinə dəstəyini artırmasa, Kreml Ukrayna "ssenarisini" Ermənistanda təkrarlamaq istəyəcək: "Vaxtilə Ukrayna məhz Avropa İttifaqı ilə assosiativ saziş imzaladığına görə Kreml tərəfindən cəzalandırıldı. İndi Ermənistan hökuməti hədəfdədir. İrəvanda Avropa Siyasi Birliyinin sammitini keçirmək azdır, Brüssel Rusiyanın baş nazir Nikol Paşinyana artan təzyiqlərini neytrallaşdırmaq barədə düşünməlidir. Rusiya Ermənistana qazın qiymətlərini qaldırmağı planlaşdırır, üstəgəl Ermənistanın kənd təsərrüfatı məhsullarının Rusiya bazarlarına girişi qadağan olunub. Avropa İttifaqı öz bazarını Ermənistan kənd təssərrüfatı məhsullarına açа və bu ölkəni qazla təmin etmənin alternativlərini hərəkətə gətirə bilərmi? Bu baş verməyəcəksə, Brüsselin və Makronun Paşinyana sözdə dəstəkləri bir qara qəpiyə dəyməyəcək".

❑ Emil SALAMOĞLU,
"Yeni Müsavat"

Ermənistanda Fransa hərbi bazası

İrəvan yayılan məlumatları indilikdə təkzib etməyə üstünlük verir, amma Moskvadan üz döndərən ölkəni Parisdən başqa kim müdafiə edə bilər?

Ermənistan Müdafiə Nazirliyi ölkə ərazisində 840 fransız hərbçisinin yerləşdirilməsi ilə bağlı yayılan məlumatları təkzib edib. Ermənistan Müdafiə Nazirliyinin mətbuat katibi Aram Torosyan bu barədə açıqlamasında danışıb. Onun sözlərinə görə, yayılan iddiaların reallıqla heç bir əlaqəsi yoxdur. "Yayılan saxta materiallar toplusu Ermənistana qarşı həyata keçirilən hibrid fəaliyyətlər çərçivəsində növbəti dezinformasiya kampaniyasıdır. Belə informasiya hücumlarının məqsədi cəmiyyətdə etimadsızlıq və daxili gərginlik yaratmaq, həmçinin Ermənistanla beynəlxalq tərəfdaşları arasında əməkdaşlığa olan etimadı sarsıtmaqdır", - Aram Torosyan bildirib.

Ermənistan ərazisində xarici hərbi birləşmələrin yerləşdirilməsinə yalnız iki halda icazə verilir: Ermənistan tərəfindən təsdiq edilmiş beynəlxalq müqavilələr əsasında və ya hərbi vəziyyət şəraitində və yalnız ölkənin suverenliyinin, təhlükəsizliyinin və ərazi bütövlüyünün qorunması ilə bağlı məqsədlər üçün.

Ermənistanının Müdafiə haqqında Qanununun 1-ci maddəsinə əsasən, digər ölkələrin silahlı qüvvələrinin birləşmələri respublikada yalnız qanunla müəyyən edilmiş qaydada və beynəlxalq müqavilələr əsasında yerləşdirilə bilər. Bu cür ımüqavilələrin bağlanmasına icazə və onların təsdiqlənməsi hökumətin təsdiqindən sonra Ermənistan parlamenti tərəfindən təsdiqlənməlidir. Dövlətin ərazisində qanunla və beynəlxalq müqavilələrlə nəzərdə tutulmayan digər hərbi birləşmələrin yaradılması və ya mövcudluğu qəti qadağandır. Oxşar hüquqi mexanizmlər, məsələn, Ermənistan və Rusiya Federasiyası arasında bağlanmış dövlətlərarası müqavilə əsasında fəaliyyət göstərən Gümrüdəki 102-ci Rusiya hərbi bazasının yerləşdirilməsinə də tətbiq olunur. Bazaların yaradılması ilə bağlı hər hansı yeni təşəbbüslər dövlət səviyyəsində ciddi təsdiq proseduru tələb edir.

Ermənistanda Fransa hərbi bazasının təkzibinin arxasındakı gerçək nədir? Rusiyadan üz döndərəcəyi halda Ermənistanı Parisdən başqa kim müdafiə edə bilər? Qanunlardan da göründüyü kimi, buna xüsusi əngəllər mövcud deyil.

Hərbi ekspert Ramil Məmmədlinin sözlərinə görə, Fransa hərbi attaşesi Ermənistanda fəaliyyət göstərir. Eyni zamanda Avropa Birliyinin mülki missiyası adlanan heyətdə də fransız jandarmasının olduğunu deyən R.Məmmədli hesab edir ki, Fransa faktiki bölgəyə bu ölkə üzərindən yerləşməyə çalışır: "Şübhəsiz ki, burada Fransa ordusunun kəşfiyyat təyinatlı bir qrupunun iştirakından söhbət gedir. Ermənistanda fransız qoşunlarının olması isə mümkün deyil. Çünki KTMT üzvüdür. Fransa isə bu bloka antoqonist olan NATO ölkəsidir. Bunun üçün Ermənistan gərək KTMT-dən de-yure çıxsın, sonra təhlükəsizlik sahəsində özünün yeni tərəfdaşını elan etsin. Hələ ki Ermənistan sərhədləri rus hərbçiləri tərəfindən mühafizə olunur. Ona görə də Ermənistanın təkzib verməsi başadüşüləndir".

Hərbi ekspert bildirib ki, Ermənistan Fransa ilə hərbi-texniki əməkdaşlığını genişləndirir. O, buna misal olaraq 28 may paradında Fransanın "Biston" zirehli texnikasının nümayiş etdirilməsini göstərir: "Avropa Birliyinin şərti sərhəddə olan missiyasındakı Fransız jandarması isə Parisin Cənubi Qafqazda öz hərbi varlığını göstərməyə hesablanıb. Seçkilərdən sonra Paşinyan bu addımlarını gücləndirəcək. Fransa Ermənistan üzərindən regionda hərbi mövcudluğunu artırmağa çalışır. Sözsüz ki, məqsəd Rusiyanın hərbi bazasını çıxarmağa hədəflənib. Fransa lideri Makron da İrəvanda olarkən demişdi ki, burada 4 min rus əsgəri var. Onun bu sözü deməyə əsas verir ki, Fransa bölgədə Rusiyanın ən çox təsiri olan Ermənistanda onun mövqeyini zəiflətmək istəyir".

Ekspertə görə, hətta Makrondan sonra da Fransanın Ermənistan siyasətində ciddi dəyişiklik gözləmir: "Çünki Qərb - yəni Avropa Birliyi və ABŞ Rusiyanı bölgədən çıxarmaqda israrlıdır. Bu, yanlız Makron hakimiyyəti ilə məhdudlaşmır. Amma gələcəkdə rus qoşunlarının yerinə Avropa və ya Fransa ordusunun Ermənistana yerləşəcəyi o qədər də asan məsələ deyil. Nəzərə alaq ki, Rusiyanın Ermənistanda ciddi təsirləri var. Məsələn, Gümrü hərbi bazası Rusiya və Ermənistan arasında imzalanan müqaviləyə əsasən, 2044-cü ilə qədər fəaliyyətini davam etdirməlidir. Ona görə də Fransanın bölgədə avantürüst addımları yalnız gərginliyə səbəb ola bilər".

Hərbi ekspert Fransanın Ermənistanda hərbi baza yerləşdirməsini NATO-nun regiona yerləşməsi kimi dəyərləndirir: "Buna təkcə Rusiya deyil, İran da etiraz edəcək. Onsuz da Tehran rəsmiləri tez-tez İrəvana xəbərdarlıq edirlər ki, Qərbin bölgəyə gətirilməsi əlavə gərginliyə səbəb olacaq. Bu mənada Paşinyanın təhlükəsizlik sahəsində addımları risklərlə müşayiət olunur".

Xatırladaq ki, Makron və Paşinyan strateji tərəfdaşlıq və müttəfiqlik sazişi imzalayıblar. Ermənistanın "Zham.am" nəşri "Fransa ilə hərbi əməkdaşlıq proqramları Ermənistan üçün hansı təhlükələri yaradır?" başlıqlı məqalə yazıb. Nəşrə görə, sazişin əsasını müdafiə sahəsində əməkdaşlığın gücləndirilməsi və Parisin "Airbus" korporasiyası üçün "mümkün perspektivlər" gördüyü nəqliyyat razılaşmaları təşkil edir. "Paşinyan bu sazişləri guya "Ermənistanın hərbi sahədə diversifikasiya siyasəti" kimi təqdim edəcək. Lakin bu addımla Paşinyan Ermənistanı eyni anda bir neçə tərəfdən hədəfə çevirəcək. Əvvəla, bu hərbi əməkdaşlıq Moskva tərəfindən son dərəcə düşməncəsinə qarşılanacaq.

Nəzərə almaq lazımdır ki, bu gün Moskva ilə Paris arasında münasibətlər artıq sadəcə soyuq deyil, demək olar ki, yarımhərbi xarakter alıb. Fransa digər Avropa ölkələri ilə birlikdə Rusiyanı Ukraynada mövqelərindən geri çəkilməyə məcbur etməli olan siyasət elan edib və bu, Moskva tərəfindən demək olar ki, yarımhərbi addım kimi qəbul olunur", - deyə müəllif qeyd edib.

Məqalədə bildirilib ki, İran da NATO ölkəsi ilə Ermənistanın belə bir saziş bağlamasını öz şimal sərhədlərinə qarşı yeni təhlükə ocağının yaradılması kimi qiymətləndirir.

❑ **Emil SALAMOĞLU,**
"Yeni Müsavat"

Bakı-Tiflis hərbi ittifaqı güclənir

Regionda yeni güc mərkəzi formalaşır

Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov Gürcüstana səfər çərçivəsində bu ölkənin baş naziri İrakli Kobaxidze ilə görüşüb.

Gürcüstanın baş nazirinin müavini, müdafiə naziri İrakli Çikovaninin də iştirak etdiyi görüşdə iki ölkə arasında əməkdaşlığın hazırkı vəziyyəti, regional və beynəlxalq gündəmdə duran məsələlər müzakirə olunub.

Tərəflər həmçinin regionda sülhün və sabitliyin qorunmasının əhəmiyyətini diqqətə çatdırıb, Gürcüstan və Azərbaycan arasında müdafiə sahəsində strateji tərəfdaşlığın və əməkdaşlığın yüksək səviyyədə olduğunu vurğulayıblar.

General-polkovnik Z.Həsənov müdafiə naziri İrakli Çikovani ilə ayrıca da görüşüb. Nazir deyib ki, bir çox sahələrdə olduğu kimi, hərbi sahədə də əlaqələrimizin davamlı olaraq inkişaf etdiyini qeyd edib.

Azərbaycanın Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri Faiq Quliyevin də iştirak etdiyi görüşdə tərəflər hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlıqların yeni perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparıblar.

Azərbaycanın müdafiə nazirinin Gürcüstana səfəri və yüksək səviyyəli görüşləri təkcə protokol xarakterli hadisə deyil, regionda formalaşan yeni təhlükəsizlik arxitekturasının mühüm elementlərindən biri kimi qiymətləndirilməlidir.

Son illərdə Azərbaycan və Gürcüstan arasında hərbi əməkdaşlıq dinamik şəkildə genişlənir. Bu əməkdaşlıq təkcə ikitərəfli əlaqələrlə məhdudlaşmır, eyni zamanda regionun enerji və nəqliyyat təhlükəsizliyinin təmin olunmasına xidmət edir. Xüsusilə Bakı-Tiflis-Ceyhan və Cənub Qaz Dəhlizi kimi strateji layihələrin təhlükəsizliyi iki ölkə arasında koordinasiyanı zəruri edir.

Məlumdur ki, Azərbaycan və Gürcüstan mütəmadi olaraq birgə hərbi təlimlər keçirir. Bu təlimlərdə əsas diqqət kritik infrastrukturun qorunması, sərhəd təhlükəsizliyi və qeyri-ənənəvi təhdidlərə qarşı mübarizəyə yönəldilir. NATO standartlarına uyğunlaşma baxımından Gürcüstanın təcrübəsi Azərbaycan üçün əlavə əməkdaşlıq imkanları yaradır.

Zakir Həsənov və İrakli Çikovani arasında keçirilən ayrıca görüşdə hərbi-texniki və hərbi təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi məsələlərinin müzakirəsi də təsadüfi deyil. Bu, gələcəkdə zabit hazırlığı, təcrübə mübadiləsi və müdafiə sənayesi sahəsində birgə layihələrin mümkünlüyünü göstərir.

Digər mühüm məqam isə regionda sülh və sabitlik məsələsidir. Azərbaycan və Gürcüstan faktiki olaraq Cənubi Qafqazda sabitlik "oxu" kimi çıxış edir. Hər iki ölkə regional layihələrin əsas iştirakçısı olmaqla yanaşı, geosiyasi balansın qorunmasında da maraqlıdır.

Bu baxımdan, Həsənovun Tiflis səfəri və aparılan danışıqlar göstərir ki, Azərbaycan-Gürcüstan hərbi əməkdaşlığı artıq sadə tərəfdaşlıq mərhələsini geridə qoyaraq daha dərin, strateji və uzunmüddətli müttəfiqlik səviyyəsinə doğru inkişaf edir.

❑ **"Yeni Müsavat"**

Qlobal təbii qaza tələbat 31% artacaq

2055-ci ildə qlobal təbii qaz tələbatı 2024-cü il səviyyəsi ilə müqayisədə 31% artaraq 5,4 trilyon kubmetrə çatacaq.

Bu barədə Qaz İxrac Edən Ölkələr Forumunun (GECF) baş katibi Filip Mşelbila Bakı Enerji Həftəsində bildirib.

"Təbii qaz qlobal enerji balansında mövqeyini möhkəmləndirir. Proqnozlara görə, qlobal təbii qaza tələbat 2055-ci ilə qədər təxminən 31% artaraq 5,4 trilyon kubmetrə çatacaq. Onun qlobal enerji balansındakı payı 23%-dən 26%-ə qədər artacaq", - deyə o qeyd edib.

Mşelbila hesab edir ki, enerji sistemlərinin genişmiqyaslı elektrikləşdirilməsi fonunda qaz tələbatının artımının əsas hərəkətverici qüvvəsi elektrik enerjisi sənayesi olacaq: "2055-ci ilə qədər qlobal qaz tələbatının xalis artımının təxminən 43%-i təkcə Asiya-Sakit Okean regionunun payına düşəcək. Bu prosesin əsas hərəkətverici qüvvələri iqtisadi artım, sənayeləşmə, urbanizasiya və artan enerji ehtiyacları olacaq".

Ən çox milyarderə sahib ölkələr

Süni intellektin inkişafı və əlverişli maliyyə siyasəti sayəsində bu il dünya milyarderləri siyahısına rekord sayda - 3428 sahibkar, investor və varis daxil olub. İqtisadiyyat.az-ın araşdırmasına görə, bu göstərici 2025-ci illə müqayisədə 400 nəfər çoxdur.

Araşdırmalara görə, bu il milyarderlərin ümumi sərvətləri rekord həddə - 20,1 trilyon dollara çatıb ki, bu da ötən illə müqayisədə 4 trilyon dollar çoxdur.

Bu il ən çox milyarder ABŞ-də qeydə alınıb. Belə ki, ölkədə milyarderlərin sayı rekord həddə - 989 nəfərə çatıb. Onların ümumi sərvəti isə 8,4 trilyon dollardır. Buraya dünyanın ən varlı 20 adamından 15-i, o cümlədən ən zəngin insanı da daxildir. Keçən il ən çox milyarderə sahib olan Amerika, bu il də 106 yeni milyarderlə liderliyini davam etdirir.

Honkonq da daxil olmaqla, Çin 610 nəfərlə ikinci yerdə, Hindistan (229) isə üçüncü yerdə qərarlaşıb.

"Forbes" jurnalının builki reytinqində 80 ölkə və ərazidə 3428 milyarder qeydə alınıb. Lakin bütün milyarderlərin yarıdan çoxu və ya 51%-i bu üç ölkədə cəmləşib.

Planetdə ən çox əhalisi olan Hindistan, milyarderlərin sayına görə üçüncü yerdədir. Builki siyahıya ümumilikdə 1 trilyon dollarlıq sərvəti olan 229 hindistanlı daxildir.

İlk beşliyi 212 milyarderlə Almaniya və 147 milyarderlə Rusiya tamamlayır.

Bu arada, Pakistan 2010-cu ildən bəri ilk dəfə olaraq milyarderlər siyahısına qayıdıb.

Xəzərdə yeni əməkdaşlıq imkanları müzakirə edilib

Azərbaycan və ABŞ arasında Xəzər regionunda yeni əməkdaşlıq imkanları üzrə müzakirələr aparılıb. Bunu energetika naziri Pərviz Şahbazov X sosial şəbəkəsindəki hesabında bildirib.

Məlumata görə, bu barədə müzakirələr ABŞ dövlət katibinin iqtisadiyyat, enerji və biznes məsələləri üzrə köməkçisi Kaleb Orrun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdə aparılıb.

Nazir bildirib ki, iki ölkə arasında yeni mərhələyə yüksələn Azərbaycan və ABŞ arasında strateji enerji tərəfdaşlığının prioritet istiqamətləri nəzərdən keçirilib: "Görüşdə regional enerji təhlükəsizliyi, neft-qaz sektorunun, enerji bağlantıların inkişafı və Xəzər regionunda yeni əməkdaşlıq imkanları üzrə müzakirələr aparılıb".

Britaniya şirkəti BP tezliklə Xəzər dənizinin Azərbaycan sahilindəki "Babək" yatağında genişmiqyaslı təbii qaz hasilatı layihəsinin operatoru ola bilər. Dövlət neft şirkəti SOCAR və BP-nin dərinsulu yataq üçün rəsmi müqavilə imzalaması gözlənilir". "Yeni Musavat" xəbər verir ki, bu barədə "Svobodnaya Pressa"yazıb. Bildirilir ki, ilkin hesablamalara görə, yataqda təxminən 400 milyard kubmetr təbii qaz və təxminən 80 milyon ton qaz kondensatı ehtiyatı var. SOCAR yataqla bağlı bütün lazımi sənədləşmə işləri başa çatdıqdan sonra onu BP-nin idarəçiliyinə verəcək.

"Babək" yatağının BP-yə verilməsi kimləri narahat etdi?

Ekspert deyir ki, Rusiya Azərbaycanın enerji layihələrinə hansısa formada maneə törətmək və ya bu prosesə təsir göstərmək gücündə və imkanında deyil

Nəşrə danışan beynəlxalq iqtisadçı Yuri Qoroxov hesab edir ki, "Babək" yüksək riskli və kapital tələb edən dərinsulu layihədir. "Onun işlənməsi müasir texnologiya, milyardlarla dollarlıq investisiyalar və təcrübə tələb edir və BP-nin dərinsulu işlənmə sahəsində daha böyük təcrübəsi var. Avropa Rusiya qazına alternativ axtarır və Azərbaycanın resursları olduqca əhəmiyyətli görünür. BP-nin mövcudluğu Avropa alıcıları və maliyyə qurumları üçün siyasi sığorta siyasəti kimi xidmət edir. BP-nin investisiyaları qazın Cənub Qaz Dəhlizi vasitəsilə Qərb bazarlarına çatacağına zəmanət verə bilər".

Ekspert hesab edir ki, Azərbaycanın BP-yə öz şelfinə giriş imkanı verdiyi və BP-nin Orta Asiyadakı böyük layihələrdə iştirakını asanlaşdırdığı bir sistem qurulur. Sırf hipotetik olsa da, maraqlı bir "mübadilə" ortaya çıxır.

BP olmadan "Babək" SOCAR-ın balans hesabatında çətin bərpa olunan aktiv olaraq qalardı. BP ilə isə Azərbaycan qazının mayeləşdirilməsi və terminal elektrikləşdirilməsi, eləcə də Britaniya brendinin çətiri altında Avropa bazarına çıxış daxil olmaqla uzunmüddətli qaz sənayesinin inkişafı proqramı əldə edir.

Operatorluqdan imtina etməklə, Azərbaycan səhmdar kapitalını saxlayır, çünki SOCAR-dakı payı əhəmiyyətli dərəcədə qalacaq və Avropaya əlavə təchizatçı statusu alacaq. Bu, kapital, texnologiya və geosiyasi perspektivlər üçün resursların mübadiləsi üçün yaxşı bir razılaşmadır, baxmayaraq ki, tamamilə risksiz və nəticələrsiz deyil".

Ekspert iddia edib ki, sazişin konkret maliyyə detalları və buna görə də Azərbaycan üçün faydalar hələ tam aydın deyil. İqtisadçının iddiasına görə, operatorluğun xarici şirkətə verilməsi Böyük Britaniyanın siyasi iradəsindən asılılıq yaradır. "BP-nin prioritetləri dəyişərsə, layihə dayana bilər. Axı bu gün Azərbaycan qazının Rusiya qazına alternativ kimi rolu vacibdir. Lakin Avropanın enerji siyasəti bərpa olunan enerji mənbələrinə sürətləndirilmiş keçidə doğru dəyişə bilər. Avropada qaza tələbat 10-15 il ərzində kəskin şəkildə azalarsa, Babəkə investisiyaların aqibətinin nə olacağı aydın deyil. "Babək" layihəsi pul qazanmaq üçün deyil, uzunmüddətli strateji hədəfdir".

Azərbaycanın enerji sektorunda BP ilə əməkdaşlığına dair Rusiya nəşrində dərc olunan material ilk baxışdan balanslı və texniki analiz təsiri bağışlasa da, mətnin dərin qatlarında fərqli geosiyasi mesajlar sezilir. Bu yazı təkcə iqtisadi riskləri deyil, həm də Azərbaycanın strateji istiqamətinə dair dolayısı ilə xəbərdarlıq elementlərini ehtiva edir.

Yeri gəlmişkən, SOCAR-ın vitse-prezidenti Arzu Cavadova iyunun 2-də Bakı Enerji Həftəsinin ikinci günündə təşkil olunmuş panel müzakirələrində bildirib ki, SOCAR Xəzərin cənub hissəsində "Babək", "Naxçıvan" və "Zəfər" yataqlarını prioritet istiqamət kimi müəyyən edib. Onun sözlərinə görə, SOCAR Cənubi Xəzərdə yerləşən iri qaz-kondensat strukturlarında kəşfiyyat fəaliyyətlərini davam etdirir: "Əsas diqqət dərinsulu ərazilərdə yerləşən "Babək", "Naxçıvan", "Zəfər-Məşəl", "Şəfəq-Asiman" və "Aşağı Suraxanı" strukturlarına yönəlib. Bu istiqamətlər gələcəkdə Azərbaycanın qaz ehtiyat bazasının genişləndirilməsi baxımından mühüm rol oynaya bilər".

İqtisadçı Natiq Cəfərli mövzu ilə bağlı "Yeni Müsavat"a fikrini bölüşüb: "Rusiyanın uzun illərdir, Azərbaycanın müstəqillik əldə etdiyi dövrdən etibarən Qərblə həyata keçirdiyi enerji layihələrinə maneçilik yaratmaq cəhdləri anlaşılan və görünən olub. Hətta "Əsrin müqaviləsi", mərhum prezident Heydər Əliyevin iradəsi və siyasi çəkisi olmasaydı, bəlkə də imzalana bilməzdi. Amma hazırda elə bir şərait yaranıb ki, Rusiyanın Azərbaycanın enerji layihələrinə hər hansı formada müdaxilə etməsi və ya təsir göstərməsi faktiki olaraq mümkünsüz hala gəlib. Azərbaycan enerjidaşıyıcıları baxımından kifayət qədər güclü mövqeyə malikdir və çox böyük layihələrdə beynəlxalq tərəfdaşlarla birgə iştirak edir. İstər BP olsun, TOTAL olsun, AMOCO olsun - böyük şirkətlər Azərbaycanda kifayət qədər uğurla fəaliyyət göstərirlər. Ona görə də Rusiya tərəfindən səslənən hansısa analitik yanaşmalara ciddi əhəmiyyət verməyə ehtiyac görülmür".

İqtisadçının sözlərinə görə, Azərbaycanın BP və digər şirkətlərlə əməkdaşlığı da getdikcə genişlənir və bu proses davam edəcək: "Çünki ehtiyatları çox böyük olmasa da, perspektivli yataqlar mövcuddur və onların işlənilməsində Amerika, Britaniya, Fransa və Türkiyə şirkətləri aktiv rol oynayırlar. Tədricən bu layihələrin həyata keçirilməsinin şahidi olacağıq. Yəni 2027, 2028 və 2029-cu illərdə yeni qaz yataqlarının istismara verilməsi və Azərbaycandan Avropaya nəql olunan qazın həcminin artması gözlənilir. Yəni bu gün Rusiya Azərbaycanın enerji layihələrinə hansısa formada maneçilik törətmək və ya bu prosesə təsir göstərmək gücündə və imkanında deyil".

❑ **Afaq MİRAYİQ,**
"Yeni Müsavat"

Macarıstanın keçmiş baş naziri Viktor Orban BMT-də yüksək vəzifə tuta bilər. Jurnalist araşdırmaları layihəsi olan "Vsquare"ın məlumatına görə, bu təşəbbüs ABŞ-dəki MAGA hərəkatına yaxın siyasi dairələr tərəfindən dəstəklənir və məqsəd Orbana vətənində mümkün korrupsiya ittihamları ilə bağlı təqiblərdən siyasi müdafiə təmin etməkdir. Nəşr yazır ki, diplomatik dairələrdəki bir neçə xarici və macar mənbə belə bir ssenarinin müzakirə olunduğunu təsdiqləyib. Bildirilir ki, əsas məsələ konkret vəzifədən daha çox həmin postun Orbana verə biləcəyi hüquqi müdafiə səviyyəsidir.

Azərbaycanın dostu BMT-nin baş katibi ola bilər

Hüquqşünas Orbanla bağlı yayılan iddialara izahat verdi: "Onun şansı..."

Müəlliflər vurğulayırlar ki, BMT sistemində müxtəlif vəzifələr fərqli immunitet dərəcələri nəzərdə tutur. Bəzi postlar yalnız xidməti fəaliyyətlə bağlı məhdud immunitet təmin etdiyi halda, ən yüksək vəzifələr faktiki olaraq tam diplomatik toxunulmazlıq verir.

Jurnalistlər qeyd edirlər ki, BMT-nin 1946-cı il tarixli İmtiyazlar və İmmunitetlər Konvensiyasına əsasən, tam diplomatik immunitet yalnız təşkilatın ən yüksək vəzifəli şəxslərinə şamil edilir. Onların statusu xarici səfirlərin statusuna bərabər tutulur və bu, həm onların, həm də ailə üzvlərinin cinayət təqibindən qorunmasını nəzərdə tutur. Daha aşağı vəzifələrdə çalışan şəxslər isə yalnız xidməti vəzifələrinin icrası çərçivəsində funksional immunitetə malik olurlar.

"Vsquare"nin məlumatına görə, belə bir ssenarini dəstəkləyə biləcək şəxslər arasında ABŞ rəhbərliyi ilə yanaşı, Argentina Prezidenti Xavyer Miley də ola bilər. O, daha əvvəl seçkilər öncəsi Viktor Orbana açıq dəstək ifadə edib.

Məqalədə həmçinin qeyd olunur ki, BMT-nin yeni baş katibinin seçilməsi prosesi artıq faktiki olaraq başlayıb. Hazırda əsas favorit Beynəlxalq Atom Enerjisi Agentliyinin (MAQATE) rəhbəri olan argentinalı Rafael Qrossi hesab edilir.

Bununla belə, nəşr vurğulayır ki, təsvir olunan ssenari hələ ilkin müzakirə mərhələsindədir və onun reallaşacağına dair hər hansı zəmanət yoxdur.

Bundan əvvəl Viktor Orban parlamentin yeni çağırışında deputat mandatından imtina edəcəyini açıqlamış və bunu "hazırda parlamentdə deyil, milli düşərgənin yenidən təşkilində lazım olması" ilə əsaslandırmışdı.

Eyni zamanda jurnalist Sabolç Panyi mənbələrə istinadən bildirmişdi ki, baş nazir vəzifəsindən ayrıldıqdan sonra Orban ABŞ-yə köçə bilər. İddialara görə, onun bəzi qohumları artıq ABŞ-də yaşayır və keçmiş siyasətçi orada siyasi himayəyə ümid edə bilər.

Azərbaycanın və ümumilikdə Türk dünyasının dostlarından olan Orbanın BMT-nin əsas kürsüsünə sahiblənməsi ehtimalı nə qədər realdır?

BMT strukturuna yaxından bələd olan **hüquqşünas Sahib Məmmədov** bu mövzu ilə bağlı "Yeni Müsavat"a açıqlamasında öncə bildirdi ki, uzun illər Macarıstanın baş naziri olmuş Orban yalnız Azərbaycanın deyil, bütün Türk dünyasının dostudur: "Amma bundan da əvvəl o, macar xalqının dostudur. Məhz onun baş nazir olduğu dövrdə Macarıstan siyasi arenada öz sözünü deyən və iradəsini yerinə yetirən bir dövlət imici qazandı. Macarıstan sosial dövlət olaraq əhəmiyyətli dərəcədə sosial rifahı təmin edən Şərqi Avropa ölkəsidir. Daha sonra onun öz yetirmələrindən biri Tisa Partiyasının lideri Peter Madyar populist və Avropa İttifaqını - Brüsseli təmin edən şüarlarla partiyasını qələbəyə apara bildi, nəticədə böyük üstünlüklə qalib gəldi. Dövlət sükanının arxasına keçdikdən sonra isə o, şüarlarının və proqramının bir hissəsindən imtina etməyə başlayıb. Viktor Orban Ukraynaya münasibətinə görə Avropa İttifaqı dövlətləri tərəfindən təzyiqlərə məruz qalırdı. O, Rusiya ilə münasibətlərin tam kəsilməsinin əleyhinə idi və hər nə olursa, Rusiya ilə dialoqun tərəfdarı idi. Mən onu Finlandiyanın prezidenti olmuş əfsanəvi Urho Kekkonenlə müqayisə edərdim. Avropa və bütövlükdə Qərb Sovet İttifaqı ilə soyuq müharibə vəziyyətində olduğu dövrdə Kekkonen Finlandiyanı SSRİ-nin Avropa ilə dialoq aparması üçün bir "pəncərəyə" çevirdi. Helsinki prosesinin baş tutmasında və 1 avqust 1975-ci ildə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi Helsinki Yekun Aktının qəbul olunmasında Kekkonen əhəmiyyətli rol oynamışdı. O zaman Qərb ölkələrinə müdrik liderlər rəhbərlik edirdi deyə, onda alındı. Viktor Orban buna nail ola bilmədi və nəticədə kimin günahkar olmasından asılı olmayaraq, Avropada müharibə gedir".

O ki qaldı Orbanın BMT baş katibi olmaq şansına, S.Məmmədovun fikrincə, bu, sıfıra bərabərdir. Ekspert ehtimalını bu arqumentlərlə əsaslandırdı: "Birincisi, baş katib Avropadan olmayacaq, BMT Nizamnaməsi seçkili vəzifələrə təyinatda ədalətli coğrafi bölgü prinsipini əsas götürür. Artıq 6 namizəd var. Onların əksəriyyəti Cənubi Amerikadandır, o cümlədən hazırda MAQATE rəhbəri olan Rafael Qrossi. İkincisi, hətta onun namizədliyi irəli sürülsə belə, BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvünün razılığı olmasa, onun namizədliyi səsə qoyula bilməz. Ən azı Böyük Britaniya və Fransa onun namizədliyinə veto qoyacaq".

Hüquqşünas digər məqamlara da toxundu: "BMT sistemində əsas vəzifələrə təyinat da həmçinin BMT Təhlükəsizlik Şurası üzvlərinin razılığı olmadan mümkün deyil. Hansısa orta vəzifələrə və ya BMT ECOSOK-un ixtisaslaşmış idarələrindən olan və ayrıca beynəlxalq təşkilat statusu olan təşkilatlardan birinin baş direktoru şansını sınaya bilər. Belə qurumların sayı 15-ə qədərdir. Məsələn, Beynəlxalq Əmək Təşkilatı, UNESCO və s. Amma bu halda da yenə əsas maneə BMT Təhlükəsizlik Şurasından gələ bilər. Bununla belə, ABŞ israr edərsə, adı gedən dövlətlər müəyyən vəzifələrə razılaşa bilərlər".

Hüquqşünas hesab edir ki, Orbanın ABŞ-yə köçməsinə dair deyilənlər daha çox ona qarşı aparılan kampaniyanın tərkib hissəsidir: "Mən inanmıram ki, belə addım atsın. Hazırda Orban deputat mandatından imtina edib və partiyasını möhkəmlənməsi ilə məşğuldur. Fikrimcə, Orbanın "U gedişi" etmək şansı hələ qalır. O, bir dəfə məğlub olub və geriyə dönüş edərək, 16 il baş nazir ola bilib. Avropada geopolitik şərait dəyişməkdədir. Yaxın bir neçə il həlledici olacaq. O zaman Orban yenidən parlaya bilər. Hətta o, siyasətdən getsə belə, tarix yazan liderlərdən biri kimi qalacaq".

❑ **E.PAŞASOY,**
"Yeni Müsavat"

Gürcüstanın riskli İran kursu

Natiq Cəfərli: "Gürcüstanda müsəlmanlar dinə bağlıdırsa, bunu İranla yaxınlaşma kimi şərh etmək məntiqli deyil"



ABŞ-nin "The Washington Post" nəşri Gürcüstanla bağlı redaksiya məqaləsi dərc edib. Məqalədə bildirilir ki, getdikcə daha avtoritar xarakter alan "Gürcü Arzusu" hökuməti Donald Tramp administrasiyasının Cənubi Qafqazdakı strateji maraqları üçün təhlükə yaradır. Müəlliflər yazırlar ki, vaxtilə Vaşinqtonun etibarlı tərəfdaşlarından biri hesab olunan Gürcüstan indi "İranın təsir orbitinə meyllənir".

Nəşrin qənaətinə görə, illərlə ABŞ-nin "etibarlı müttəfiqi" hesab olunan ölkə getdikcə daha çox "anti-Amerika" siyasəti yürüdür. Onların fikrincə, "Gürcü Arzusu" hökuməti Qərb tərəfdaşları ilə münasibətləri qurban verərək Rusiya və İranla əlaqələri dərinləşdirməyə çalışır.

İranın təsirindən danışan müəlliflər Hudson İnstitutunun son hesabatına istinad edirlər. Nəşrin məlumatına görə, Gürcüstan hökuməti İrana ölkənin etnik şiə azərbaycanlı əhalisini ələ almağa yönəlmiş dini məktəblər, gənclər və xeyriyyə təşkilatları, eləcə də müxtəlif nəşrlər şəbəkəsi yaratmağa icazə verib.

Məqalə müəllifləri həmçinin qeyd edirlər ki, Donald Tramp administrasiyasının təşəbbüsü ilə Ermənistan və Azərbaycan arasında gedən sülh prosesi fonunda Tiflis regional danışıqlarda öz mövqelərini gücləndirməyə çalışır.

"Heç bir şübhə yoxdur ki, "Gürcü Arzusu" prezident Donald Trampa sövdələşmələrə əsaslanan münasibətlər təklif edəcək. Amma eyni zamanda bu hakimiyyət açıq şəkildə Amerikanın ən qatı düşmənlərindən biri ilə yaxınlaşmağa çalışır", - məqalədə deyilir.

"The Washington Post"un hazırkı Gürcüstan hökumətinin Tramp komandasının regionumuzdakı maraqları üçün təhlükə yaratdığı barədə iddiası nə dərəcədə reallığa uyğundur? "Gürcü Arzusu"nun Cənubi Qafqazda ABŞ təsirinin azalmasına yönəlmiş konkret addımlarına dair hansısa nümunələr varmı? Əgər varsa, onlar nə dərəcədə uğurludur? Gürcüstan niyə İranla yaxınlaşır?

REAL Partiyası Siyasi Komitəsinin sədri Natiq Cəfərli "Yeni Müsavat"a bildirdi ki, "The Washington Post" Donald Trampın deyil, Demokratların nəzarətində olan nəşrdir. Demokratların isə "Gürcü Arzusu"na mənfi münasibəti var: "Demokratlar Partiyası "Gürcü Arzusu" Partiyasını qəbul etmir. Trampla indi "Gürcü Arzusu" arasında müəyyən əlaqələrin yaradılmasına çalışılır. "The Washington Post" kimi nəşrlər də bu tipli məqalələrlə yaxınlaşmanın qarşısını almaq istəyir. Çünki Qərbdə "Gürcü Arzusu"nun tam legitimləşdirilməsi onların maraqlarına uyğun deyil. Gürcüstanda müsəlmanlar dinə bağlıdırsa, bunu dövlətin İranla yaxınlaşması kimi şərh etmək məntiqli deyil. Gürcüstan İranla niyə yaxınlaşsın ki? Ümumi sərhədi yox, ümumi əlaqələri, ümumi maraqları yox. Gürcüstan İranla hansı marağa görə yaxınlaşmaq istəyə bilər? Gürcüstanın İranla turizm, ticarət əlaqələri var. Burada isə qeyri-adi nə isə yoxdur. Gürcüstan müstəqil ölkədir. ABŞ ilə də münasibətlərini davam etdirir. Rusiya və İranla da əlaqələrinin olması ABŞ-yə qarşı çıxmaq kimi qiymətləndirilməməlidir".

Natiq Cəfərli qeyd etdi ki, İranın Ermənistanla münasibətləri, əlaqələri Gürcüstanla əlaqələrdən, münasibətlərdən qat-qat çoxdur, amma buna görə ABŞ Ermənistana sanksiya qəbul etmir. Gürcüstana da İranla ticarət və turizm əlaqələrinə görə hədəfə alası deyil.

❑ **Etibar SEYİDAĞA,**
"Yeni Müsavat"

Milli Kibertəhlükəsizlik Agentliyi yaradıldı - vəzifələri

Yeni qurum ölkədə kibertəhlükəsizlik sahəsində tənzimləməni və nəzarəti təmin etməlidir

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidmətinin əsasında Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində "Milli Kibertəhlükəsizlik Agentliyi" publik hüquqi şəxs yaradılıb. Prezident İlham Əliyev bu barədə fərman imzalayıb.

Fərmanla müəyyən edilib ki, Milli Kibertəhlükəsizlik Agentliyi ölkədə kibertəhlükəsizlik sahəsində tənzimləmənin və nəzarətin (kritik informasiya infrastrukturlarına, dövlət orqanlarına (qurumlarına) məxsus olan informasiya infrastrukturlarına münasibətdə yalnız məlumat mübadiləsinin) həyata keçirilməsini, həmçinin dayanıqlılığın artırılmasını, o cümlədən informasiya infrastrukturu subyektlərinin fəaliyyətinin koordinasiyasını, informasiya infrastrukturlarının kibertəhlükəsizliyinin pozulmasına yönəldilmiş hərəkətləri aşkarlamaq, araşdırmaq və qarşısını almaq üçün preventiv tədbirlərin görülməsini (dövlət orqanlarına (qurumlarına) məxsus olan informasiya infrastrukturları, eləcə də kritik informasiya infrastrukturları istisna olmaqla), mövcud və yarana biləcək kibertəhlükələr barədə ölkə səviyyəsində məlumatlandırmanı, əhalinin, dövlət və qeyri-dövlət qurumlarının kibertəhlükəsizlik sahəsində maarifləndirilməsini və onlara metodiki dəstək göstərilməsini təmin edən (ali kateqoriya dövlət orqanlarına, mühafizə olunan şəxslərə, qorunan və strateji obyektlərə, habelə dövlət orqanlarına (qurumlarına) məxsus olan informasiya infrastrukturlarına münasibətdə aidiyyəti səlahiyyətli orqan vasitəsilə, kritik informasiya infrastrukturunun təhlükəsizliyinə münasibətdə kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində səlahiyyətli orqan vasitəsilə), habelə yayılması qadağan edilən informasiyanın internet informasiya ehtiyatlarında yerləşdirilməsinə qarşı tədbirlər görən və fərdi məlumatların mühafizəsi sahəsində fəaliyyət göstərən publik hüquqi şəxsdir.

Agentlik qeyd edilən dövlət orqanının hüquqi varisidir, onun bütün hüquq və öhdəlikləri, habelə əmlakı Agentliyə keçir.

Agentliyin nizamnamə fondu bu Fərmanın 1-ci hissəsində qeyd edilən dövlət orqanı üçün cari ilin dövlət büdcəsində nəzərdə tutulmuş və həmin dövlət orqanının öhdəliklərinin tam icra olunduğu tarixədək istifadə olunmamış vəsait hesabına formalaşdırılır;

Agentliyin fəaliyyətinin təşkili və təmin edilməsi xərcləri fəaliyyətindən, o cümlədən göstərdiyi xidmətlərdən əldə olunan vəsait və qanunla qadağan edilməyən digər mənbələr hesabına maliyyələşdirilir.

Agentliyin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün 4 (dörd) üzvdən - sədr və onun 3 (üç) müavinindən ibarət İdarə Heyəti yaradılır.

Fərmanla Agentliyin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilir:

Azərbaycan Respublikasının Prezidentinə:

Agentliyin nizamnaməsinin təsdiqi və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onlarda dəyişiklik edilməsi;

Agentliyin idarəetmə orqanlarının yaradılması;

Agentliyin yenidən təşkili və ləğvi;

Nazirliyə "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə Agentlik dövlət qeydiyyatına alındığı gündən 1 (bir) ay müddətində bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan dövlət orqanının balansındakı əmlakın Agentliyin balansına verilməsini təmin etmək və Agentliyin maddi-texniki təminatının yaxşılaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək həvalə edilir.

Fərmana əsasən, nazirlik Agentliyin dövlət qeydiyyatına alınması üçün bu Fərman qüvvəyə mindiyi tarixdən 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tədbirlər görməli, bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görməlidir.

Ölkədə internet qumarı kimlər oynayır?

Hüquqşünasa görə, qeyri-qanuni kazino şəbəkələrinin ən təhlükəli tərəfi onların xaricdə qurulması və gəncləri "tələyə salmasıdır"

Azərbaycanda onlayn qumar və mərc oyunlarına marağın artdığı müşahidə olunur. Rəsmi statistika açıqlanmasa da, ekspertlər və bazar iştirakçıları xüsusilə gənclər arasında bu sahəyə marağın yüksək olduğunu bildirirlər.



Mütəxəssislərin fikrincə, onlayn mərc oyunlarının əsas auditoriyasını 18-40 yaş arası şəxslər, idman həvəskarları və mobil tətbiqlərdən aktiv istifadə edənlər təşkil edir. Xüsusilə futbol oyunları üzərindən edilən mərclər bazarın böyük hissəsini əhatə edir.

Son illər Azərbaycanda da qanunsuz onlayn kazino və qumar oyunlarının qlobal internet məkanında geniş miqyasda yayılması halları müşahidə olunur. Azərbaycanda qeyri-qanuni onlayn qumar və kazino oyunlarına qarşı mübarizə Daxili İşlər Nazirliyinin Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsi tərəfindən aparılır. Kiberpolisin bu məqsədlə keçirdiyi son tədbirlərlə qeyd olunan cinayət əməllərində təqsirli bilinən daha 4 nəfər - Səfər Səfərov, Fazil Məmmədov, Riyad Heydərli və Nadir Soltanov saxlanılıb. Araşdırmalarla müəyyən edilib ki, həmin şəxslər ölkə hüdudlarından kənarda yaradılan onlayn kazino saytlarının Azərbaycan seqmenti üzrə admin panelini idarə ediblər. Bu isə həmin şəxslərə ölkə ərazisində kazino oyunlarını təşkil etməyə imkan yaradıb. Saxlanılan şəxslərin yaşadıqları ünvanlara baxış zamanı elektron sübutlar, qanunsuz kazino oyunlarında istifadə olunan 200-dən artıq bank kartları, mobil nömrələr və s. aşkarlanaraq maddi sübut kimi götürülüb. Məhkəmənin qərarı ilə S.Səfərov və F.Məmmədov barəsində həbs-qətimkan tədbiri seçilib.

Sosial şəbəkələrdə və internet forumlarında aparılan müzakirələr göstərir ki, bəzi istifadəçilər onlayn qumarı əyləncə vasitəsi hesab etsələr də, digərləri onun borclanma, asılılıq və ailədaxili problemlər yaratdığını vurğulayırlar.

"Bakı" Hüquq Şirkətinin rəhbəri Natiq Ələsgərov "Yeni Müsavat"a deyib ki, Azərbaycanda qanunsuz onlayn mərc və qumar platformalarının genişlənməsi təkcə texnoloji deyil, həm də sosial-psixoloji problemdir. Onun sözlərinə görə, bu sistemlər artıq klassik əyləncə çərçivəsindən çıxaraq davranış asılılığı yaradan rəqəmsal mexanizmə çevrilib: "Bugünkü qanunsuz onlayn mərc platformaları sadəcə idman nəticələrinə pul qoymaq sistemi deyil. Bu, psixoloji manipulyasiya, davranışın idarə edilməsi və istifadəçinin davamlı olaraq sistemdə saxlanılması üzərində qurulmuş modeldir. İstifadəçi çox zaman "kiçik məbləğlə başlayıram" düşüncəsi ilə daxil olur, amma alqoritmlər və oyun dinamikası onu mərhələli şəkildə daha böyük risklərə sürükləyir".

Natiq Ələsgərovun fikrincə, bu sahədə əsas risk qruplarından biri gənclərdir. Xüsusilə 18-30 yaş arası şəxslər sürətli qazanc illüziyası və rəqəmsal rahatlıq səbəbilə bu platformalara daha tez cəlb olunurlar: "Mobil telefon vasitəsilə 24 saat əlçatanlıq, depozit və uduş əməliyyatlarının sadələşdirilməsi istifadəçidə real risk hissini azaldır. İnsan pul itirdiyini dərk etsə belə, geri qazanmaq psixologiyası onu sistemdə saxlamağa davam edir. Bu isə klassik asılılıq modelidir".

O əlavə edir ki, qeyri-qanuni onlayn kazino şəbəkələrinin ən təhlükəli tərəfi onların strukturlaşdırılmış və transsərhəd xarakter daşımasıdır. Bu platformalar çox vaxt xarici serverlər üzərindən idarə olunur və yerli istifadəçi bazasına xüsusi lokallaşdırılmış interfeyslərlə çıxış edirlər: "Burada artıq tək bir operator deyil, qlobal şəbəkə modeli var. Ödəniş kanalları, agent şəbəkələri, referal sistemlər və anonim tranzaksiyalar bu mexanizmi daha da mürəkkəbləşdirir. Bu da hüquq-mühafizə orqanlarının izləmə imkanlarını çətinləşdirir".

Natiq Ələsgərov qeyd edir ki, bu istiqamətdə aparılan əməliyyatlar Daxili İşlər Nazirliyi yanında fəaliyyət göstərən Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsi tərəfindən sistemli şəkildə həyata keçirilir: "Son əməliyyatlar göstərir ki, bu şəbəkələr artıq sadəcə istifadəçi yönləndirmə ilə kifayətlənmir, admin panel idarəçiliyi, kart dövriyyəsi və rəqəmsal infrastruktur üzərində qurulmuş daha geniş cinayət modelinə çevrilib. Burada söhbət təkcə qumardan yox, həm də maliyyə axınlarının gizlədilməsi və kibermühitdə cinayət ekosisteminin formalaşmasından gedir". **Natiq Ələsgərovun qənaətinə görə, ən ciddi təhlükə sosial nəticələrdir:** "Bu proses təkcə fərdin pul itkisi ilə bitmir. Borclanma, ailə münasibətlərinin pozulması, psixoloji gərginlik və hətta bəzi hallarda depressiv davranışlar müşahidə olunur. Qeyri-qanuni onlayn qumar artıq sosial risk faktoruna çevrilib. Ona görə də bu məsələyə yalnız hüquqi yox, həm də sosial müdaxilə modeli ilə yanaşmaq lazımdır".

❑ **E.MƏMMƏDƏLİYEV,**
"Yeni Müsavat"

Çin Azərbaycandan yeni ticarət yolu qurur

Ölkəmizin yalnız regional deyil, beynəlxalq səviyyədə də önəmi və iqtisadi faydaları artır

Çin Avropa ilə yük daşımalarının həcmini Rusiya ərazisini yan keçərək Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta dəhliz) vasitəsilə artırmağı planlaşdırır. Bu barədə Ukraynanın Xarici Kəşfiyyat Xidməti məlumat yayıb.

Marşrut Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyə üzərindən keçir: "Bu dəhliz üzrə logistika Rusiya üzərindən tranzitlə müqayisədə daha mürəkkəb hesab olunur. Çünki burada dəmir yolu daşımaları, liman infrastrukturu, bərə keçidləri və bir neçə dövlət arasında mürəkkəb gömrük prosedurları birləşir. Bununla belə, Pekin və Astana bu layihəni fəal şəkildə inkişaf etdirir. Əsas səbəblər isə Rusiyanın "toksik", sanksiyalar altında və etibarsız hesab olunması, həmçinin hazırda qeyri-sabit olan dəniz marşrutlarından asılılığı azaltmaq istəyidir".

Çinin Avropa istiqamətində yük daşımalarını Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu - Orta dəhliz vasitəsilə artırmaq planı qlobal ticarət sistemində mühüm dəyişikliklərin baş verdiyini göstərir. Bu təşəbbüs, sadəcə, alternativ logistika marşrutunun inkişafı deyil, eyni zamanda Avrasiya məkanında geoiqtisadi balansın yenidən formalaşması deməkdir.

Orta dəhliz Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyə üzərindən keçərək Çinlə Avropanı birləşdirir. Bu marşrut uzun illər əsas tranzit xətti olmuş Rusiya üzərindən keçən şimal dəhlizinə alternativ kimi formalaşır.

Mövcud şəraitdə Çin üçün əsas prioritetlərdən biri logistika risklərini minimuma endirməkdir. Rusiya üzərindən keçən marşrutun sanksiyalar və siyasi risklərlə üzləşməsi Pekini alternativ yollar axtarmağa vadar edir. Bununla yanaşı, qlobal dəniz ticarətində müşahidə olunan qeyri-sabitlik də quru marşrutlarının əhəmiyyətini artırır. Bu baxımdan Orta dəhliz Çinin "şaxələndirmə strategiyası"nın mühüm elementinə çevrilir.

Bu prosesdə Azərbaycanın rolu xüsusi diqqət çəkir. Ölkə həm coğrafi mövqeyi, həm də son illərdə inkişaf etdirilən nəqliyyat infrastrukturu sayəsində regionun əsas tranzit mərkəzlərindən birinə çevrilir. Bakı limanı, dəmir yolu xətləri və beynəlxalq logistika layihələri Azərbaycanın tranzit potensialını əhəmiyyətli dərəcədə artırır. Bu isə ölkəyə əlavə iqtisadi dividentlər və strateji üstünlüklər qazandırır.

Orta dəhlizin inkişafı Rusiyanın regiondakı ənənəvi tranzit üstünlüyünü zəiflədə bilər. Lakin bu prosesin tədrici xarakter daşıyacağı aydındır. Şimal marşrutu hələ də daha ucuz və oturuşmuş logistika sistemi kimi qalır. Buna görə də yaxın perspektivdə tam əvəzlənmədən deyil, daha çox alternativ marşrutların güclənməsi və rəqabətin artmasından söhbət gedir.

Çinin son 20 illik ticarət siyasətinə nəzər yetirdikdə, aydın görünür ki, Pekin həmişə, tam öz nəzarətində olan ticarət yoluna belə alternativ formalaşdırır. Bu, sırf ixrac hesabına 30 ilə yaxın müddətdə dünyada görünməmiş iqtisadi artım əldə edən Çin üçün dəyişməz prinsipdir. Alternativsiz ticarət yolu çox böyük asılılıq, eyni zamanda həmin yola böyük güclərin nəzarət uğrunda savaşı, ən nəhayət, böyük risklər deməkdir. İxracyönümlü Çin iqtisadiyyatı üçün bu 3 amilin hər biri təhdid hesab olunur.

Məhz bu prinsipə əsaslanan Si Cinpin hökuməti "Bir kəmər, bir yol" təşəbbüsünü irəli sürərək, 13 ildə onun icrasına 1 trilyon dollardan yuxarı vəsait yönəldib.

Rusiyanın Ukraynada işğalçı müharibəsi başlayandan sonra Orta dəhlizin inkişafına diqqətini artıran Pekin hətta bu dəhlizin daxilində belə alternativlərə dəstək verir. Məsələn, Çindən Orta dəhliz boyunca yüklərin əsas çıxış yolu Qazaxıstan üzərindəndir. Burada hazır dəmiryol və avtomobil magistralı infrastrukturu var. Lakin Çin 2024-cü ildə tikintisinə başlanan, dəyəri 4,7 milyard dollar hesablanan Çin-Qırğızıstan-Özbəkistan dəmiryol xəttinin inşasının 51 faizini maliyyələşdirir. Tikintini Çinin Dövlət Dəmoryol Şirkəti icra edir. Məqsəd isə Qazaxıstan üzərindən keçən yoldan asılı olmamaqdır. Əvvəla, bu yolun 57 faizi istismar müddətini keçib, daşımalarda böyük fasilələrin yaranması təhlükəsi var, ikincisi, Qazaxıstan tək tranzit ölkə statusundan digər ölkələrə qarşı sui-istifadə edir. Bu isə vaxtaşırı Astana ilə Bişkek və Daşkənd arasında mübahisə və soyuqlaşmalara gətirib çıxarır. Yeni dəmiryol xətti Mərkəzi Asiya ölkələri arasında nifaq almasının böyük ölçüdə ortadan qalxmasına imkan verəcək.

Çin həmçinin Türkmənistanla əlaqələrini dərinləşdirməklə, Özbəkistan üzərindən ötürülən yüklərin bir qisminin Xəzər dənizinə onun ərazisi ilə çatdırılması üçün infrastrukturu təkmilləşdirməyə investisiya qoyur. Bu, Çinin bir bölgədə çoxvektorlu iqtisadi siyasətinin bariz nümunəsi sayıla bilər.

Bütün bu layihələr Çinə Şimal marşrutuna alternativ olan Orta dəhlizdə əsas söz sahiblərindən biri olmaq imkanı yaradır. Məlumdur ki, Avropa İttifaqı və ABŞ Rusiyadankənar ticarət daşımaları üçün Orta dəhlizə diqqəti sürətlə artırırlar. Artıq Aİ Özbəkistan və Qazaxıstan infrastrukturuna 3,5 milyard avroluq investisiyaya yaşıl işıq yandırıb. Bu məbləğin yaxınmüddətli dövrdə 10 milyard avroya yüksəldilməsi nəzərdə tutulur. Dünyanın 3 əsas iqtisadi mərkəzinin maraqlarının kəsişdiyi Orta Dəhlizin Xəzərin bu tayında yeganə həlqəsi Azərbaycandır. Mərkəzi Asiyada yüklərin Xəzərə qədər daşınması üçün alternativlərin yaradılması mümkündürsə, Xəzərdən sonrakı hərəkət üçün belə alternativ yalnız Azərbaycanın Qərb sərhədlərindən sonra mümkündür: ənənəvi Gürcüstan marşrutuna Zəngəzur dəhlizi timsalında Ermənistan da əlavə olunur. Xəzər dənizindən bu iki ölkənin sərhədinə qədər olan hissədə isə Azərbaycan alternativsizdir. İranla İsrail və ABŞ arasındakı münaqişənin uzunmüddətli xarakteri, İranın mövcud infrastrukturu bu ölkənin Orta dəhlizdə iştirak ehtimalını minimuma endirir. Bu isə o deməkdir ki, Mərkəzi Asiya üzərindən Orta dəhlizlə ötürülən və ötürüləcək yüklərin Xəzərdən sonra tək ünvanı Azərbaycan olaraq qalacaq.

Beynəlxalq analitiklərə görə, Azərbaycanın iştirakı Orta dəhlizin əhəmiyyətinin artırılması üzrə səyləri aktivləşdirib, lakin marşrut hələ də buraxılış qabiliyyəti, gömrük prosedurlarının əlaqələndirilməsi və Xəzər dənizindən keçid problemləri ilə üzləşir. Tariflərin əlaqələndirilməsi, sərhəd prosedurlarının sadələşdirilməsi, eləcə də liman və dəmir yolu infrastrukturuna qoyulan investisiyalar sayəsində Mərkəzi Asiya və Qafqaz getdikcə daha çox vahid nəqliyyat arteriyasının hissələri kimi fəaliyyət göstərir. Bu, regiona Çinlə Avropa arasında yüklərin daşınması üçün daha sürətli alternativ marşrut təqdim edir, baxmayaraq ki, o, ənənəvi dəniz marşrutları ilə müqayisədə hələ də xeyli kiçik qalır.

Hesablamalara əsasən yüklərin Süveyş kanalı və ya Şimal marşrutu vasitəsilə çatdırılması təxminən 35-45 gün çəkir, halbuki Orta dəhliz əlverişli şəraitdə tranzit müddətini 13-21 günə azalda bilər. Proqnozlara görə, bu marşrut üzrə daşımaların həcmi cari onillik ərzində üç-dörd dəfə arta bilər.

Ekspertlər bildirirlər ki, logistikadan əlavə, layihə region üçün yeni iqtisadi əsas yaradır. Onun kəsişmə nöqtəsi statusu marşrut boyunca nəqliyyat qovşaqlarına və istehsalat müəssisələrinə investisiyalar cəlb edir, bu da tranzit dəhlizlərini potensial olaraq iqtisadi artım zonalarına çevirə bilər. Bu, iştirakçı ölkələrə yalnız tranzit gəlirləri deyil, həm də uzunmüddətli strateji dayanıqlıq üçün daha möhkəm əsas verir.

Hazırda Azərbaycan Mərkəzi Asiya resursları üçün daha geniş bazarlara çıxışı təmin edərək strateji qapı rolunu oynayır. Ölkənin öz ərazisində yükötürmə infrastrukturunu təkmilləşdirməsi, Zəngəzur dəhlizinin fəaliyyətinə hazırlıqların sürətlə həyata keçirilməsi, Bakı-Tiflis-Qars dəmiryol xəttinin ötürücülük gücü artırıldıqdan sonra yenidən istismara açılması, Ələt dəniz limanının genişləndirilməsi Azərbaycanın orta və uzunmüddətli dövrdə Mərkəzi Asiyadan göndəriləcək yüklərin hamısını ötürmək gücündə olmasına imkan yaradacaq. Bu isə ölkənin yalnız regional deyil, beynəlxalq səviyyədə də önəmini, eyni zamanda əldə edəcəyi iqtisadi faydaları artırır...

❑ **Dünya SAKİT,**
"Yeni Müsavat"

Supermarket və aptəklərdə yeni ödəmə qaydası

Bu dəyişiklik birbaşa müştəriləri narahat etməli olan məsələ deyil, amma...

İyunun 1-dən etibarən Azərbaycanda kartla ödənişlər zamanı tətbiq olunan interçeync (banklararası xidmət haqqı) üzrə yeni limitlər qüvvəyə minib. Yeni qaydalara əsasən, aptek və supermarketlərdə bu haqqın yuxarı həddi 1,25 faiz, yanacaqdoldurma məntəqələrində 0,75 faiz, digər ümumi kateqoriyalarda isə maksimum 1,5 faiz müəyyənləşdirilib. Bəzi fəaliyyət sahələri üzrə isə konkret yuxarı həd tətbiq olunmayacaq. Qərarın əsas məqsədi banklararası hesablaşmaların tənzimlənməsi, nağdsız ödənişlərin inkişafının dəstəklənməsi və ödəniş sistemində daha balanslı mexanizmin formalaşdırılmasıdır.

Bəs bu limitlərin tətbiqi kartla ödənişləri daha da artıracaq, yoxsa bankların gəlirlərinə təsir edəcək?

Qeyd edək ki, son illərdə Azərbaycanda kartla ödənişlərin həcmi sürətlə artır. Həm dövlətin nağdsız iqtisadiyyat siyasəti, həm də vətəndaşların rahatlıq baxımından plastik kartlara üstünlük verməsi bu tendensiyanı gücləndirib. Lakin kartla aparılan hər əməliyyatın arxasında banklar və xidmət təminatçıları arasında müəyyən komissiya mexanizmi mövcuddur. Məhz interçeync haqqı da həmin sistemin əsas elementlərindən biridir.

Ekspertlərin fikrincə, interçeync haqlarının yuxarı həddinin müəyyənləşdirilməsi bəzi hallarda ticarət obyektlərinin xərclərini azaltmağa kömək edə bilər. Xüsusilə böyük dövriyyəyə malik supermarket şəbəkələri və aptek kart ödənişləri üzrə daha proqnozlaşdırılan komissiya sistemi ilə işləyəcəklər.

Digər tərəfdən, bu qərar bankların kart əməliyyatlarından əldə etdiyi gəlirlərə müəyyən təsir göstərə bilər. Komissiya gəlirlərinin azalması bəzi maliyyə qurumlarını alternativ gəlir mənbələri axtarmağa sövq edə bilər. Bununla belə, mütəxəssislər hesab edirlər ki, əməliyyat sayının artması nəticəsində banklar itkilərinin bir hissəsini kompensasiya edə bilərlər. Yəni hər əməliyyatdan əldə olunan gəlir azalsa da, ümumi əməliyyat həcminin böyüməsi bankların gəlirlərini tarazlaşdıra bilər.

Məsələnin istehlakçılar üçün maraqlı tərəfi isə odur ki, yeni qaydalar qiymətlərə necə təsir göstərəcək. Nəzəri baxımdan, ticarət obyektlərinin ödədiyi komissiya xərcləri azaldıqca, bu, məhsul qiymətlərinin sabit qalmasına və ya əlavə artımların qarşısının alınmasına kömək edə bilər. Lakin bazar iştirakçılarının bu üstünlüyü alıcılara hansı səviyyədə ötürəcəyi hələlik açıq sual olaraq qalır.

Mövzu ilə bağlı **iqtisadçı Xalid Kərimli** "Yeni Müsavat"a danışıb. İqtisadçı qeyd edib ki, banklararası ödənişlərdə interçeync haqlarına maksimal limitlərin qoyulması və sahələr üzrə fərqli faizlərin müəyyənləşdirilməsinin vətəndaşla birbaşa əlaqəsi yoxdur: "Yəni vətəndaşlar əvvəlki qaydada öz kartları ilə ödəniş edərək alış-verişlərini həyata keçirə bilərlər. Burada söhbət banklararası və ödəniş sistemləri arasındakı hesablaşmalardan gedir. Məsələ ondan ibarətdir ki, bir bankın kartı ilə digər bankın POS-terminalında ödəniş həyata keçiriləndə banklararası hesablaşma baş verir. Vəsaiti qəbul edən bank həmin vəsaitin köçürülməsində iştirak edən banka müəyyən ödəniş edir. Eyni zamanda bu ödənişlərin bir hissəsi də Visa, MasterCard, American Express kimi beynəlxalq ödəniş sistemlərinə yönəlir. Məhz bu sahəni Mərkəzi Bank tənzimləyir.

Mərkəzi Bank burada yuxarı hədd müəyyən etməklə POS-terminal şəbəkəsinin daha da genişləndirilməsinə şərait yaratmağa çalışır. Çünki indiyədək hər hansı limitin olmaması bəzi hallarda bankların sonradan ticarət obyektlərinə və vəsaiti qəbul edən qurumlara ödənişlərin həyata keçirilməsinə görə daha yüksək komissiyalar tətbiq etməsinə imkan verirdi. Yəni banklar öz aralarında hesablaşma aparsalar da, son nəticədə həmin vəsait vəsaiti qəbul edən qurumun hesabından çıxılırdı. Buna görə də zaman-zaman müxtəlif ticarət, iaşə obyektlərinin və şirkətlərin nağdsız ödənişlərdən yayınmağa çalışdıqlarının şahidi olurduq.

Hazırda da belə hallar müəyyən qədər mövcuddur. Lakin Mərkəzi Bank konkret limitlər müəyyən etməklə həddindən artıq yüksək faizlərin və ödənişlər üzrə komissiyaların tətbiqinin qarşısını almağa çalışır".

İqtisadçı vurğulayıb ki, sahibkarlar çox vaxt kartla ödənişi qəbul etmək istəmirdilər, çünki bu halda onlar daha çox komissiya ödəmək məcburiyyətində qalırdılar. İndi isə limitlərin müəyyənləşdirilməsi bazarda daha çox şəffaflıq yaradır, bəzi bankların daha yüksək komissiyalar tətbiq etməsinin qarşısını alır və banklararası hesablaşmalar üzrə konkret qaydalar formalaşdırır: "Burada əsas məqsəd sahibkarların kart ödənişlərindən yayınmaq marağını azaltmaq və nağdsız ödənişlərin həcmini artırmaqdır. Eyni zamanda sahibkarlar bəzən bu əlavə xərcləri məhsulların qiyməti üzərinə əlavə edirdilər. Bu baxımdan yeni qaydalar bazarda daha aydın və şəffaf oyun qaydalarının formalaşdırılmasına xidmət edir.

Əslində bu dəyişiklik birbaşa müştəriləri narahat etməli olan məsələ deyil. Bu, daha çox banklararası hesablaşmalarda şəffaflığın artırılması, limitlərin müəyyənləşdirilməsi və kart ödənişləri ilə nağdsız hesablaşmaların, eləcə də POS-terminallardan istifadənin genişləndirilməsinə yönəlmiş addımdır".

"Qərarın gələcəkdə müştərilərə dolayı təsiri ola bilərmi" sualına Xalid Kərimli bu cür cavab verib: "Müəyyən dövrdən sonra bəzi bankların müştərilərə təqdim etdiyi keşbek proqramlarına, bonus kampaniyalarına və digər loyallıq proqramlarına maraq azala bilər. Təcrübədə görürük ki, bəzi hallarda banklar keşbek faizlərini aşağı salırlar. Keşbeklərin maliyyələşdirilməsinin bir hissəsi də məhz bu cür komissiya gəlirlərindən formalaşır.

Komissiyalar üzrə yuxarı həddin müəyyənləşdirilməsi gələcəkdə müştərilərə yönəlmiş loyallıq proqramlarının, bonusların və keşbek kampaniyalarının səviyyəsinin müəyyən qədər azalmasına təsir göstərə bilər. Yəni bu kontekstdə müştərilər dolayı təsirlərlə qarşılaşa bilərlər.

Bununla belə, ümumilikdə kart əməliyyatları üzrə xərclərin azalması və sabit yuxarı limitlərin müəyyənləşdirilməsi nağdsız hesablaşmaların genişlənməsinə gətirib çıxaracaq. Eyni zamanda sahibkarların kartla ödənişdən imtina etməsi halları da əvvəlki qədər geniş yayılmayacaq. Çünki sahibkarlardan tutulan vəsaitlərin azalması nəticəsində bazarda daha ədalətli rəqabət mühiti formalaşacaq və nağdsız ödənişlərin qəbuluna maraq artacaq".

❑ **Xalidə GƏRAY,**
"Yeni Müsavat"

Nağdsız ödənişlər niyə azalıb?

Bu ilin aprel ayında Azərbaycanda nağdsız ödənişlərin məbləği ötən ilin eyni ayı ilə müqayisədə 2,2% azalaraq 9 milyard 94 milyon manat təşkil edib.

İqtisadiyyat.az xəbər verir ki, bunun 7,969 milyard manatı (87,6%-i) elektron ticarətin payına düşüb.

Ödənişlərin 1 milyard 123 milyon manatı POS-terminallar, 2,5 milyon manatı isə özünə xidmət terminalları vasitəsilə həyata keçirilib. İlin əvvəlindən ödəniş kartları ilə nağdsız ölkədaxili əməliyyatların məbləği kart əməliyyatlarının həcminin 69,9%-ni təşkil edib.

Bu il mayın 1-nə Azərbaycanda ödəniş kartlarının sayı 22 milyon 518 min ədəd təşkil edib. Bu, aylıq müqayisədə 0,5%, ilin əvvəli ilə müqayisədə 2,45%, ötən ilin eyni dövrü ilə müqayisədə 8,9% çoxdur.

Son 1 ildə ölkədə debet kartlarının sayı 11,35% artaraq 20,473 milyon, kredit kartlarının sayı isə 10,6% azalaraq 2,045 milyon olub. Apreldə bu kartlar üzrə dövriyyənin məbləği müvafiq olaraq 12,527 milyard manat (illik müqayisədə 5% az) və 697 milyon manat (29,5% az) təşkil edib.

Hesabat dövründə ölkədə bankomatların sayı 5,6 %, POS-terminalların sayı isə 23,7% artaraq müvafiq olaraq 3 586 ədəd (Bakı üzrə 1 930 ədəd) və 160 225 ədəd (Bakı üzrə 101 103 ədəd) təşkil edib.

Hazırda beynəlxalq ödəniş sistemlərinin 3 əsas növü var: kart, elektron və universal ödəniş sistemləri. Dünyada daha çox populyar olan 5 beynəlxalq kart ödəniş sistemi mövcuddur - "Visa İnternational", "MasterCard İnternational", "American Express", "Diners Club İnternational" və "JCB Card"dır. Bu maliyyə nəhəngləri Azərbaycan bankları ilə də əməkdaşlıq edir.

Milli şüur, vətənpərvərlik

YENİ MÜSAVAT

N 21 (8870) 3 iyun 2026

Azərbaycan Respublikasının Mədianın İnkişafı Agentliyi

Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi

Avropa siyasətində Azərbaycan izi

Avropada geniş yayılmış diasporamızın nümayəndələri arasında siyasətə meyl edənlər varmı?

Məlum olduğu kimi, Moldovada yaşayan soydaşımız Ramiz Ansarov Orxey şəhərinin meri vəzifəsinə seçkilərin ikinci turunda ilkin nəticələrə görə qalib gəlib. Bu xoş xəbər aktual suallar yaradıb - azərbaycanlılar yaşadıqları ölkələrin siyasi həyatında nə dərəcədə təmsil olunurlar? Avropada geniş yayılmış diasporamızın nümayəndələri arasında siyasətə meyl edən, yaxud siyasi həyatda özünə mövqe qazanmağa cəhd edənlər varmı?

Xatırlatmaq yerinə düşər ki, Avropa Parlamenti bəzən Azərbaycana qarşı qərəzli, həqiqəti əks etdirməyən qətnamələr qəbul edir, avroparlamentin ermənipərəst deputatları isə ölkəmizə qarşı əsassız ittihamlar səsləndirirlər. Və hər dəfə belə hallar yaşananda siyasətlə az-çox maraqlananlar sual edirlər - əgər Avropa siyasətində təmsil olunan azərbaycanəsilli siyasətçilər çox olsa idi, səsimiz eşidilərdimi?

Musavat.com-un əməkdaşı Avropada yaşayan, müxtəlif vəzifələrdə çalışan, həm yüksək postlarda mövqeyi olan, həm də siyasətlə az-çox maraqlanan azərbaycanlılarla söhbətləşib. Gəldiyimiz qənaət belə oldu ki, Azərbaycanın müstəqilliyini digər Avropa ölkələrindən nisbətən gec əldə etməsi, xüsusilə ölkəmiz üçün önəmli olan periodda köç edən azərbaycanlılar arasında siyasətçilərin demək olar ki, olmaması Avropada səsimizi eşitdirə bilməməyimizin əsas səbəbləridir.

Adının açıqlanmasını istəməyən azərbaycanəsilli diplomat saytımıza şərhində bildirib ki, xarici ölkələrdə digər icmalardan fərqli olaraq, azərbaycanlı icmaları nisbətən az saydadır: "Vaxtilə azərbaycanlılar daha çox qonşu ölkələrə miqrasiya ediblər. Uzaq ölkələrə isə müstəqillik əldə etdikdən sonrakı illərdə tədricən üz tutmağa başlayıblar. Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra ilk intellektual axın Avropaya, xüsusilə Fransaya olub. Onların varisləri isə valideynlərinin köç etdiyi ölkələrdə kök salmayıblar. Müxtəlif sahələrdə tanınan çox az sayda azərbaycanlılar olub. Ancaq siyasətə maraq göstərən olmayıb. Azərbaycan ikinci dəfə müstəqilliyini əldə etdikdən sonra növbəti miqrasiya başlayıb. Təhsil, səhiyyə, ailə şərtləri kimi səbəblərdən dolayı 90-cı illərin əvvəllərində xarici ölkələrə köç edən azərbaycanlıların övladları artıq yaşadıqları cəmiyyətlərə tam inteqrasiya olunmalı idilər. Amma görünən odur ki, onlar arasında siyasətçilərə rast gəlinmir. Özünü siyasətdə sınamaq istəyən, Avropanın aparıcı ölkələrinin parlamentlərində təmsil olunan azərbaycanəsilli şəxslər çox azdır. Gənc nəsil isə indi-indi cəmiyyətlərə inteqrasiya etməyə başlayıb. Tarixə nəzər salsaq, miqrasiyaya meylli xalqların nümayəndələri əsrlər boyu müxtəlif coğrafiyalara yayıldıqları üçün yaşadıqları ölkələrdə sözün əsl mənasında kök salıblar. Buna görə də onların övladları, nəvələri həmin ölkələrin bərabərhüquqlu vətəndaşları kimi nəinki parlamentdə, hətta yüksək vəzifələrdə belə yer tuta bilirlər. Adları açıqlanmasa da, xarici siyasət xidmətlərində az sayda olsa da, azərbaycanlılar var. İstisna deyil ki, azərbaycanlıların irəli getməsində erməni diasporası, erməni faktorunun rolu var. Bütün bunlara baxmayaraq, inanırıq ki, yaxın 20-30 ildə siyasətdə özünü göstərməyi bacaran azərbaycanlıları görə bilərik".

Mövzunu Fransada yaşayan **hüquqşünas Elnur Məcidl**i ilə də müzakirə etdik. E.Məcidli bildirdi ki, Almaniyada, Fransada, Böyük Britaniyada, Hollandiyada, Polşada, Belçikada, hətta İtaliyada, o cümlədən digər Avropa ölkələrində, ABŞ-də, Kanadada dövlət qulluğunda çalışan, məmur olan azərbaycanlıların sayı yüzlərlədir və onlar müxtəlif sahələrlə çalışırlar: "Məsələn, II Qarabağ müharibəsində Fransa ictimaiyyəti Azərbaycan diasporunun aktivliyini hiss etdi. İlk Qarabağ müharibəsində Rusiyanın dəstəklədiyi erməni separatçılarının torpaqlarımızı işğal etməsinə baxmayaraq, Fransada ictimai rəyin 100 faizə yaxını ermənilər haqlı gördü. Ancaq 2-ci Qarabağ müharibəsində vəziyyət fərqli oldu. Torpaqlarımızı işğaldan azad etdiyimiz dövrdə daha kəskin antitəbliğata baxmayaraq, ictimai rəydə 40 faizlik üstünlük əldə edə bildik. Kiçik uğurlarımız isə lap çoxdur, bəzilərini ictimailəşdirmək olmur, ancaq əminəm ki, yaxın gələcəkdə Azərbaycan diasporunun gücü daha çox hiss ediləcək".

E.Məcidli qeyd edib ki, Azərbaycan diasporunun Qərb ölkələrində təxminən 30 illik tarixi var, yeni formalaşmaqdadır: "1920-ci illərdə Qərbə köçən azərbaycanlıların nəsli artıq assimilyasiya olub və onlar özlərini yaşadıqları ölkəyə daha bağlı hiss edirlər. Bir qismində ailə bağlarından gələn Azərbaycan sevgisi davam etsə də, böyük əksəriyyəti üçün bunu demək mümkün deyil. Azərbaycanlı olmaqla, Azərbaycandan olmaq eyni şey deyil. Azərbaycanda doğulsa da, özlərini azərbaycanlı hiss etməyənlər var, xaricdə özlərini azərbaycanlı kimi təqdim etməyə utanırlar, evlərində öz uşaqları ilə azərbaycan dilində deyil, xarici dildə danışırlar. Azərbaycan milli adət-ənənələrindən uzaq bir mühitdə formalaşanlardan milli təəssübkeşlik gözləmək doğru olmazdı. Bu baxımdan biz övladlarımızın xarici ölkələrdə milli ruhda böyüməsinə xüsusi önəm verməliyik ki, sabah onlar öz karyeralarında irəliləyiş əldə edəndə Azərbaycanla olan bağlarını həmişə nəzərə alsınlar. Təhsil faktoru da önəmlidir. Məsələn, Fransada 200 min erməni, 2 milyon türk yaşayır. Ancaq 200 min ermənin səsi 2 milyon türkdən daha çox çıxır, çünki ermənilər təhsilə daha çox diqqət ayırır. Məsələn, 1918-ci ildə Fransaya köçmüş erməni əsilli pinəçinin övladı yaxud nəvəsi Fransada karyera baxımından irəliləyir, çünki ali təhsil alıb. 1949-cu ildən Avropaya köçən türklərdə isə bu proses ləng gedir, çünki uzun illər ali təhsil yerinə peşə təhsili ilə kifayətlənib lər, yaxud biznesə və xidmət sektoruna üz tutublar. Bəzi türk ailələri var ki, 2-3 nəsildir ki, ancaq inşaat, yaxud restoran işi ilə məşğuldur. Yeni nəsildə isə təhsilə meyl artıb və ümid edirəm ki, yaxın 10 ildə vəziyyət bizim lehimizə dəyişəcək".

Həmyerlimizin fikrincə, diaspor komitəsinin fəaliyyəti doğru qurulmalıdır, xaricdə öz qonşusunun belə tanımadığı, yaşadığı ölkənin dilini bilməyən insanları yığıb kef məclisi təşkil etmək yerinə, bu ölkələrdə müxtəlif sahələrdə işləyən yüksək ranqlı azərbaycanlılarla əməkdaşlıq etmək lazımdır: "Onları bu prosesə cəlb etmək lazımdır. Fransa və digər Qərb ölkələrində doğulub-böyüyən, 20-30 yaşlarında gənclərimiz var ki, onlar doğulduqları ölkənin dilini, mədəniyyətini mükəmməl bilmədiklərinə, yüksək təhsil almalarına və yüksək karyeralarına baxmayaraq, Azərbaycana milli duyğularla bağlıdırlar. Bu cür gənclər yaşadıqları ölkənin hər nə qədər mentalitet və mədəniyyətini mənimsəsələr də, Azərbaycanla bağları qopmayıb və buna görə də onların dedikləri sözün, ortaya qoyduqları fəaliyyətin kəsəri daha güclüdür. Fransa cəmiyyəti bu cür insanların sözünü daha çox qəbul edir, nəinki ölkə xaricinə bağlı hansısa diaspor təşkilatının. Bu baxımdan bu cür karyeralı və vətənpərvər gənclərlə işləmək Diaspor Komitəsinin əsas vəzifəsi olmalıdır. Bu gün türk diasporu kəmiyyət baxımından Qərb ölkələrində çoxdur və biz onlarla bir yerdə işləyərək keyfiyyəti artırmalıyıq. Fransada həm türk, həm də yəhudi diasporu ilə ciddi bağlar qurub Azərbaycan diasporunun gücünü və lobbiçilik qabiliyyətini artırmağa çalışırıq. Bəzən bizim gördüyümüz işlərin birbaşa, yaxud dolayı təsirini görəndə sevinirik. Xaricdə yaşayan hər bir azərbaycanlının missiyası Azərbaycanı doğru şəkildə təmsil etmək və Azərbaycan adını uca və maraqlarını ön planda tutmaq olmalıdır".

Azərbaycan Respublikasının Mədianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Nigar HƏSƏNLİ

QHT-lərə Dövlət Dəstəyi Agentliyi maliyyə hesabatı verdi

Qeyri-Hökumət Təşkilatlarına (QHT) Dövlət Dəstəyi Agentliyi 2025-ci ili 924 min manat xərclə başa vurub. "Report" agentliyin maliyyə hesabatına istinadən xəbər verir ki, bu, 2024-cü illə müqayisədə 9,3 dəfə azdır.

Ötən il QHT-lərə Dövlət Dəstəyi Agentliyinin əməliyyat fəaliyyətindən gəliri 370 min manat (əvvəlki il olmayıb), məqsədli maliyyələşmə üzrə gəliri 6,784 milyon manat (əvvəlki il olmayıb), ayrılmış qrantlar üzrə xərcləri 6,096 milyon manat (əvvəlki ilə nisbətən 4,7 % az), işçi heyəti ilə bağlı xərcləri 716 min manat (9,3 % az), amortizasiya xərcləri 61 min manat (3,1 dəfə az), digər xərcləri isə 1,206 milyon manat (1 % çox) təşkil edib.

Bu il yanvarın 1-nə QHT-lərə Dövlət Dəstəyi Agentliyinin aktivləri 1,095 milyon manat olub ki, bu da illik müqayisədə 2,3 dəfə azdır. Hesabat dövründə agentliyin öhdəlikləri 3,3 dəfə azalaraq 240 min manata, balans kapitalı isə 2,1 dəfə azalaraq 856 min manata düşüb.

QHT-lərə Dövlət Dəstəyi Agentliyi ölkə Prezidentinin bu sahədə idarəetmənin təkmilləşdirilməsi 19 aprel 2021-ci il fərmanına əsasən Prezident yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının əsasında yaradılıb, publik hüquqi şəxsdir. Agentlik QHT-lərin inkişafı, onlarla dövlət və özəl sektor arasında əməkdaşlıq mexanizmlərinin təkmilləşdirilməsi və təşviqi, dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən məsələlərə dair qeyri-hökumət təşkilatlarının irəli sürdükləri təşəbbüslərin, proqram və layihələrin mövzularının qiymətləndirilməsi və onlara dair rəy verilməsi, habelə qeyri-hökumət təşkilatlarının beynəlxalq əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi sahələrində fəaliyyət göstərir.

Məşğulluq layihəsinin icrasına başlanılır

Əlilliyi Olan Şəxslərin Sosial Müdafiəsinə və İnteqrasiyasına Dəstək (ƏSMİD) İctimai Birliyi Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə 01 iyun 2026-cı il tarixindən "Bacarıqdan Peşəyə, Peşədən Məşğulluğa" adlı layihənin icrasına başlayır.

3 ay müddətində icra olunacaq layihənin nəticəsində iştirakçıların peşə hazırlığı səviyyəsinin yüksəlməsi, özünəinamlarının artması, iqtisadi müstəqilliklərinin güclənməsi və cəmiyyət həyatında daha fəal iştirak etmələri gözlənilir. Layihənin eyni zamanda əlilliyi olan qadınların sosial inteqrasiyasına, məşğulluq səviyyəsinin yüksəldilməsinə və rifahının yaxşılaşdırılmasına mühüm töhfə verəcəyi nəzərdə tutulur.

YENİ MÜSAVAT

Son səhifə

N 21 (8870) 3 iyun 2026

iyun

Acqarına qəhvə içməyin orqanizmə ciddi ziyanı

"Xüsusilə yuxusuzluq zamanı acqarına qəhvə içmək stres hormonu olan kortizolun səviyyəsini artırır. Bu isə sinir və ürək-damar sistemlərinə, eləcə də bütövlükdə orqanizmə mənfi təsir göstərir". Bunu rusiyalı həkim-nevroloq İnna Filatova Gazeta.ru nəşrinə açıqlamasında bildirib.

Həkim kofeinin orqanizmə təsirlərini belə izah edib: "Kofein kortizol səviyyəsini artıra bilər. Bu təsir acqarına qəhvə içərkən, yuxusuzluq, xroniki stres zamanı və yüksək dozalarda özünü daha qabarıq büruzə verir. Müəyyən kateqoriyalı pasiyentlərdə qəhvənin acqarına qəbul edilməsi təşvişi gücləndirə, taxikardiyaya səbəb ola və vegetativ sinir sisteminin işini pisləşdirə bilər. Həmçinin qlutamatergik aktivləşməni artıraraq yuxunun keyfiyyətini poza və dolayısı ilə xroniki stresi daha da şiddətləndirə bilər".

Onun sözlərinə görə, bu cür şəraitdə kofein bədənin stresə qarşı reaksiyasında və homeostazın (orqanizmin daxili sabitliyinin) qorunmasında əsas rol oynayan neyroendokrin sisteminin fəaliyyətini pozur: "Söhbət hipotalamus-hipofiz-böyrəküstü vəzi oxundan gedir. Bu sistem ətraf mühit dəyişiklikləri, infeksiyalar, iltihab və toxuma zədələnməsi də daxil olmaqla, xarici və daxili stimullara uyğunlaşmanı təmin edir. Kofein isə ona düşən yükü artırır ki, bu da bədəndə mənfi simptomların yaranmasına səbəb olur". Mütəxəssis əlavə edib ki, kofein miqren, narahatlıq və yuxu pozğunluğu olan xəstələrin də ümumi vəziyyətini daha da pisləşdirə bilər.

Bu cür öskürək ürək xəstəliklərindən xəbər verir

"Əgər kimsə quru öskürəkdən əziyyət çəkirsə, mütləq ürəyini yoxlatdırmalıdır". Bunu həkim Aleksandr Umnov deyib. O bildirib ki, ağciyərlər qan dövranı sistemi ilə əlaqəlidir, buna görə də tibbdə "ürək öskürəyi" adlanan bir termin var və bu, bronxitlə qarışdırılmamalıdır.

"Xüsusilə gecə, uzanarkən şiddətli öskürək baş verərsə, diqqət yetirilməlidir. Belə ki, müxtəlif ürək xəstəlikləri zamanı ağciyərlərə qan tədarükü pozulur, venoz qan axını yavaşlayır və ağciyərlərdə maye toplanır. Ağciyərlər daha az oksigen almağa başlayır və bu halda öskürək allergiya, mikrob və ya soyuqdəymə kimi heç bir xarici qıcıqlandırıcı olmadan baş verir. Bu öskürəyin səbəbi qanın ağciyərlərə sızmasıdır. Davamlı öskürək ürəyin qanı düzgün vurmamasının və onun damarlara daşımasının əlaməti ola bilər. Bu, pnevmosklerozun inkişafına gətirib çıxarır - yəni ağciyər toxuması birləşdirici toxuma ilə əvəz olunur və bu da qaz mübadiləsini pozur və tənəffüs çatışmazlığı yaradır. Bu tip öskürək ən çox ya intensiv gəzinti zamanı, ya da uzun müddət uzandıqdan sonra müşahidə olunur.

Böyüklərdə və yaşlılarda öskürək potensial ölümcül vəziyyətlər də daxil olmaqla, ciddi patologiyaların göstəricisi ola bilər. Bu simptom aşkar edilərsə, dərhal həkimə müraciət etmək tövsiyə olunur", - deyə həkim vurğulayıb.

Diş fırçasındakı infeksiya riski

"Rütubətli mühitdə bakteriyaların sürətlə çoxalması səbəbindən diş fırçasının hamam otağında saxlanılması infeksiya riskini yüksəldə bilər. Fırçanın hermetik (hava keçirməyən) plastik qablarda qoyulması da onun tükləri üzərində mikroorqanizmlərin sayının artmasını sürətləndirən əsas səbəblərdəndir". Bunu "Deia" nəşrinə müsahibəsində mütəxəssis Sebastyan Aryeta deyib. Həkimin sözlərinə görə, ən çox edilən səhv bir çox insanın diş fırçasını yüksək rütubətli otaqlarda qoymasıdır:

"Belə bir mühit, xüsusən də fırça istifadədən sonra tamamilə qurumağa macal tapmadıqda, müxtəlif bakteriya və mikroorqanizmlərin çoxalması üçün əlverişli şərait yaradır. Digər bir geniş yayılmış yanlışlıq isə diş fırçasının havasız, hermetik qutularda saxlanılmasıdır. Bu şəraitdə rütubət daha uzun müddət qaldığından patogenlərin inkişafı üçün ideal zəmin formalaşır".

Mütəxəssis dişləri yuduqdan sonra fırçanı məcun və qida qalıqlarından təmizləmək üçün diqqətlə yaxalamağı, suyun sərbəst süzülməsi üçün isə onu şaquli vəziyyətdə, başıyuxarı saxlamağı tövsiyə edir. Bununla yanaşı, ekspert diş fırçasının hər üç aydan bir, eyni zamanda qrip və soyuqdəymə kimi infeksion xəstəliklərdən dərhal sonra yenisi ilə əvəzlənməsini məsləhət görür. Həkim həmçinin xatırladıb ki, dişləri fırçalayarkən fırçaya həddindən artıq təzyiq göstərmək tüklərin aşınmasını sürətləndirir və onun istifadə ömrünü əhəmiyyətli dərəcədə qısaldır.

Bunları bilirsinizmi?

* Çatlamış dərini qəhvə xıltı ilə ovxaladıqda əllərin dərisi yumşaq və elastik olur.
* Yatarkən başınızın altına hündür yastıq qoymayın, yoxsa boynunuzun dərisi qırışar.
* Üzün dərisini çirkin göstərən ölmüş dəri toxumalarıdır. Vaxtaşırı bu toxumalardan azad olmaq lazımdır. Dəridə olan ölü toxumaları sərt liflərlə təmizləmək olmaz. Skrablar dərini belə toxumalardan təmizləmək və yeni dərinin üzə çıxmasına şərait yaratmaq üçündür.
* Ömrünü tamamlayan saçların 1-2%-nin töküldükdən sonra yerinə yeni tük gəlir.
* Saç tökülməsinin qarşısını almaq üçün ilk növbədə onun əmələgəlmə səbəbini aradan qaldırmaq lazımdır.
* Ayaq dırnaqlarında olan göbələklərdən xilas olmaq üçün alma sirkəsini ilıq suya töküb ayaqları vanna eləmək lazımdır. Bu proseduru göbələk əlamətləri aradan qalxana qədər bir neçə dəfə etmək lazımdır.

"Axşam yeməmək arıqlamağa kömək etmir" - maraqlı açıqlama

Məşhur qayda olan "saat 18:00-dan sonra yeməmək" arıqlamağa kömək etmir. Əksinə, bu addım metabolik stresə və gecə saatlarında həddindən artıq qida qəbuluna yol aça bilər. Effektiv çəki itirmək üçün şam yeməyinin konkret saatı deyil, ümumi gündəlik kalori miqdarı və son qida qəbulu ilə yuxu arasındakı vaxt intervalı vacibdir. Bu barədə rusiyalı diyetoloq-endokrinoloq, tibb elmləri namizədi İrina Tatarnikova TASS-a müsahibəsində danışıb.

Ekspert acqarına yatmağın fəsadlarını belə izah edib: "Ac yatmaq pis fikirdir. Əgər insan evə gec qayıdırsa, aclığa dözür və bunu bir nailiyyət kimi qəbul edirsə, bu zaman orqanizm güclü stres yaşayır. Bu isə yuxunun keyfiyyətini pisləşdirir və ertəsi gün iştahanı kəskin şəkildə artırır. Nəticədə proses çəki itkisi ilə deyil, axşam yeməyinə qarşı qarşısıalınmaz istəklə sonlanır".

Onun sözlərinə görə, bədəndəki piylər saat 19:00 və ya 20:00-da yeyilən yeməyə görə deyil, gün ərzində yaranan xroniki kalori artıqlığı səbəbindən yığılır. Şam yeməyi vaxtını şəxsi qrafikə uyğun olaraq seçmək lazımdır - optimal variant yatmazdan 2-3 saat əvvəldir. Yeməyin tərkibi də eyni dərəcədə vacibdir; axşam rasionunda zülal və lifə üstünlük vermək ən doğrusudur:

"Saat 18:00-dan sonra yemək olar, həm də bu zəruridir - xüsusən də gec yatırsınızsa. İdeal variant tərəvəzlə balıq, salatla omlet və ya qarabaşaq yarması ilə hindtoyuğu əti ola bilər. Əsas məqam odur ki, bütün günün normasını bir axşam yeməyi ilə kompensasiya etməyəsiniz. Çünki bəzi insanlar səhər yeməyini və naharı buraxır, gecə isə günlük normanın hamısını birdən yeyirlər".

Həkim vurğulayıb ki, saat 18:00-da tək və həddindən artıq doyumlu şam yeməyi yatmazdan əvvəl yeyilən yüngül qəlyanaltıdan daha zərərli ola bilər.

Axşama qədər özünüzü həddindən artıq ac vəziyyətə gətirib çıxarmamaq üçün İrina Tatarnikova qidanı gün ərzində bərabər paylamağı tövsiyə edib. Əgər gec saatda şam yeməyi planlaşdırılırsa və aclıq hissi narahatlıq yaradırsa, saat 16-17 radələrində yüngül bir qəlyanaltı etmək olar. Ekspertin sözlərinə görə, bu halda şam yeməyi daha şüurlu və yüngül olacaq, yuxudan əvvəl mədə-bağırsaq traktını həddindən artıq yükləməyəcək.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Lisenziya N: B 114
SAYI: 1.500

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib,
"Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır.
Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.